23 iyul 2021 №54-55 (1832) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident ölkəmizin qərb bölgəsinə səfər edib

Prezident İlham Əliyev iyulun 22-də ölkəmizin qərb bölgəsinə səfər edib. Dövlət başçısı Daşkəsən rayonunda, Naftalan şəhərində, Goranboy rayonunda və Gəncə şəhərində olub.

Prezident Daşkəsən rayonuna səfəri çərçivəsində "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olub. Dövlət başçısına icrası başa çatan "Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində görülən işlər barədə məlumat verilib.

Sonra Naftalana gələn İlham Əliyev şəhər hava limanı ilə tanış olub. Prezident Naftalan Mərkəzi Sanatoriyasının açılış mərasimində iştirak edib. Dövlət başçısının iştirakı ilə şəhərdə 200 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib.

Prezident İlham Əliyev daha sonra Goranboy rayonuna gəlib. Dövlət başçısı Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun və Goranboy Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Prezident İlham Əliyev ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində Gəncə şəhərinə gəlib. Dövlət başçısı 2020-ci ilin Vətən müharibəsi zamanı Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış olub.

## Mədəniyyət nazirindən media mənsublarına təbrik

Mədəniyyət naziri Anar Kərimov Milli Mətbuat Günü münasibətilə Azərbaycanın kütləvi informasiya vasitələrinə, media mənsublarına təbrik müraciəti ünvanlayıb.

Təbrikdə deyilir ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərib: "Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan - qəzet və jurnal fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur".

**_səh. 3_**

## Karantin rejimi sentyabrın 1-dək uzadılıb

Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 sentyabr saat 06:00-dək uzadılıb.

Bu barədə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov qərar imzalayıb. Qərar 2021-ci il iyulun 31-dən qüvvəyə minir.

Qərara əsasən, 31 iyul saat 00:00-dan 2 avqust saat 06:00-dək, 7 avqust saat 00:00-dan 9 avqust saat 06:00-dək, 14 avqust saat 00:00-dan 16 avqust saat 06:00-dək, 21 avqust saat 00:00-dan 23 avqust saat 06:00-dək, 28 avqust saat 00:00-dan 30 avqust saat 06:00-dək ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılıb.

# Qarabağın yeni növrağı: işıq, yol, bərpa, quruculuq

### "Müharibədən cəmi 8 ay keçib, amma görün nə qədər böyük işlər görülür"

Biz müntəzəm olaraq Azərbaycan ictimaiyyətini gedən işlərlə bağlı məlumatlandırırıq. Görülən bütün işlər xalq tərəfindən bəyənilir, dəstəklənir. Əlbəttə, o bölgələrdən olan insanlar – keçmiş köçkünlər bu layihələrin icrasında iştirak edirlər, onların rəyi mütləq nəzərə alınır. Müharibədən cəmi 8 ay keçib, amma görün nə qədər böyük işlər görülür.



Prezident İlham Əliyev bu sözləri iyulun 22-də Daşkəsən rayonuna səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərindən danışarkən deyib.

Dövlət başçısı vurğulayıb ki, biz, ilk növbədə, minatəmizləmə işləri ilə məşğul olmalıydıq və məşğul oluruq: "Bu həm çox vaxt, həm də böyük vəsait aparır. Əfsuslar olsun ki, müharibədən sonra 150-yə yaxın Azərbaycan vətəndaşı minalara düşərək ya həlak olub, ya da öz sağlamlığını itirib".

Mina xəritələrinin Azərbaycana verilməməsinin və bunun hansısa şərtlərlə verilməsinin Ermənistan tərəfindən göstərilən növbəti əxlaqsızlıq, mənəviyyatsızlıq, vicdansızlıq olduğunu deyən İlham Əliyev bildirib ki, bu, bir daha Ermənistan rəhbərliyinin bizə qarşı olan nifrətinin, düşmənçiliyinin təzahürüdür: "Çünki mina xəritələrini verməməsinin heç bir əsası yoxdur. Müharibə qurtarıb, biz qalib gəlmişik. Ermənistan məğlub olub, bu məğlubiyyətlə barışıb, barışmalı olub, məcbur etdik. İndi mina xəritələrini verməməsi nə məqsəd güdür? Daha çox azərbaycanlılar həlak olsun, daha çox insanlar əlil olsunlar. Bu, düşmənçilik deyil, nədir? Bu, bir daha onların xislətini göstərir".

Prezident qeyd edib ki, bu ilin sonuna qədər azad edilmiş torpaqlarda – həm Qarabağda, həm də Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatını quracağıq. Buraya yeni ötürücü xətlərin çəkilməsi, transformatorların, yarımstansiyaların qurulması, eləcə də ermənilər tərəfindən dağıdılmış 12 su elektrik stansiyasının bərpası və s. işlər daxildir: "Beləliklə, bu, əsas məsələdir. Çünki bu olmasa, heç bir inkişafdan söhbət gedə bilməz".

Bundan sonra yaşıl enerji layihəsinin icra ediləcəyini diqqətə çatdıran dövlət başçısı deyib ki, artıq bir xarici şirkət tərəfindən maraq göstərilib. "200 meqavatlıq günəş elektrik stansiyasının xarici şirkətin vəsaiti hesabına tikintisi ilə bağlı razılığa gəldik. Bu, çox gözəl, önəmli hadisədir. Eyni zamanda, başqa şirkətlər üçün də bu, bir siqnaldır... Biz onları da dəvət edirik, gəlsinlər, investisiya qoysunlar. Bizim şaxələndirilmiş enerji şəbəkəmiz var, bizim bütün qonşu ölkələrlə Türkiyə, Rusiya, İran, Gürcüstanla yüksək gərginlikli enerji xətlərimiz var. Biz istənilən yerə enerjini ötürə bilərik", – deyə İlham Əliyev vurğulayıb.

Prezident qeyd edib ki, enerji sahəsindən başqa ikinci vacib sahə yol infrastrukturudur: "Burada da 8 ay ərzində görün nə qədər böyük işlər görülüb. Bərdə-Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna, demək olar ki, sentyabr ayında asfalt döşənməsi də başa çatacaq. Zəfər yolu olmayıb heç vaxt. Dərədən, dağlardan, meşələrdən keçən o yol gərək açılaydı, torpaq yol çəkiləydi, ondan sonra asfalt yol. Cəmi 8-9 ayda biz bunu edirik. Paralel olaraq Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu çəkilir, 4-6 zolaqlı yoldur. Zəngilan-Qubadlı-Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları – bütün yollar üzrə qızğın iş gedir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir. Bu yol heç vaxt olmayıb, cığır olub. Qış aylarında heç vaxt ondan istifadə edilməyib. Biz indi yol çəkirik, tunellər çəkirik ki, ilin bütün mövsümlərində o yoldan istifadə edə bilək".

Dövlət başçısı, həmçinin bildirib ki, Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyükmiqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var.

Prezident diqqətə çatdırıb ki, Azərbaycanın Ermənistanla sərhədindəki yüksək dağ silsilələrindəki nöqtələrinə çıxmaq may ayında, qarın əriməsindən sonra mümkün olub: "Ora çıxmaq mümkün deyildi. Qar əriyəndən sonra biz çıxdıq, lazım bildiyimiz nöqtələri götürdük və orada yerləşdik, orada möhkəmlənirik və möhkəmlənəcəyik".

Qeyd edək ki, artıq Kəlbəcər rayonuna elektrik enerjisinin verilməsinə başlanılıb. "Azərişıq" ASC tərəfindən Kəlbəcər rayonunun mərkəzində daxili şəbəkə, küçə işıqlandırılması və müxtəlif dövlət orqanlarının yerləşdiyi müvafiq tikililərdə elektrik enerji xətləri bərpa edilib və işıq verilib.

İşıq və yol otuz ilə yaxın işğalın qaranlığında qalıb xarabazara çevrilmiş yurd yerlərinə həyatın, inkişafın, quruculuğun, o cümlədən mədəniyyətin qayıtması deməkdir...

## "Qarabağa kitabla gedək"

Məlum olduğu kimi, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşəbbüsü ilə işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyəti bərpa olunacaq kitabxanalar üçün kitabtoplama kampaniyası keçirilir. "Qarabağa kitabla gedək" devizli bu nəcib aksiyaya Türkiyə Elm və Ədəbi Əsər Sahibləri Birliyi (İLESAM) də qoşulub.



İyulun 16-da Milli Kitabxanada İLESAM tərəfindən hədiyyə olunan 10 min nüsxə kitabın təqdimetmə mərasimi keçirildi. Tədbirdə mədəniyyət naziri Anar Kərimov, Türkiyə Cümhuriyyətinin ölkəmizdəki səfiri Cahid Bağçı, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin müvafiq sahə üzrə əməkdaşları, Azərbaycan Mədəniyyət Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərləri, ədəbiyyat və mədəniyyət xadimləri iştirak edirdilər.

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov tədbir iştirakçılarını salamladıqdan sonra tədbirin əhəmiyyətindən bəhs etdi. Bildirdi ki, Mədəniyyət Nazirliyi və Milli Kitabxana Prezident İlham Əliyevin işğaldan azad olunan Füzuli şəhərinə səfəri zamanı erməni işğalçıları tərəfindən tamamilə dağıdılmış evləri və binaları göstərərək dediyi "Biz bunların hamısını bərpa edəcəyik" çağırışına qoşularaq azad olunmuş ərazilərimizdə yaradılan kitabxanalar üçün kitabtoplama kampaniyasına başlayıb. Direktor qeyd etdi ki, layihəyə ilk qoşulan Xalq yazıçısı Elçin şəxsi kitabxanasından 500-ə yaxın kitab təqdim edib. Çox sayda ziyalı və oxucularımız, müxtəlif təşkilatlar bu layihəyə dəstək verir.

**_davamı səh. 3-də_**



## Azərbaycan milli mətbuatının 146 yaşı tamam oldu

İyulun 22-də Azərbaycanın media mənsubları peşə bayramını – Milli Mətbuat Gününü qeyd etdi. Kimi iş başında, kimisi də müxtəlif təşkilatların düzənlədiyi mərasimlərdə...

1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin redaktorluğu ilə Azərbaycan dilində ilk mətbu orqan – "Əkinçi" qəzetinin 1-ci sayı çapdan çıxıb. İki il ərzində 56 sayı işıq üzü görən qəzet mədəni-maarif tariximizdə, Azərbaycan xalqının milli oyanışı və özünüdərki yolunda tarixi səhifə açdı. Bu səhifəni və onun davamını yazan böyük ziyalılarımızı rəhmətlə anır, bu yolda çalışan bütün həmkarlarımızı təbrik edirik.

## Tofiq Quliyevin "Qaytağı"sı ABŞ-da nəşr olunub

Azərbaycan–Amerika Musiqi Fondunun rəhbəri Cəmilə Cavadova-Spitzberqin təşkilatçılığı və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə ABŞ-da ilk dəfə olaraq bəstəkar Tofiq Quliyevin fortepiano üçün işlədiyi "Qaytağı" əsərindən ibarət kitablar çap olunub.




Dövlət Komitəsindən bildirilib ki, nəşrin baş redaktoru ABŞ-ın Massaçusets ştatında yaşayan tanınmış piano ifaçısı, Azərbaycanın Əməkdar artisti Emil Əfrasiyabdır. Kitabı nəşrə Cəmilə Cavadova-Spitzberq hazırlayıb. Kitablardan biri pianoda solo ifa, digəri bir pianoda 4 əllə ifa, üçüncüsü isə iki pianoda ifa üçün nəzərdə tutulub.

Qeyd edək ki, görkəmli Azərbaycan bəstəkarı, milli caz və estrada musiqisinin banilərindən olan Tofiq Quliyev fortepiano üçün bir sıra xalq rəqslərini işləyib. Onlardan biri də "Qaytağı" əsəridir. Əsər melodik cəhətdən son dərəcə yeyin və dinamik olan eyniadlı "Qaytağı" Azərbaycan xalq rəqsi əsasında bəstələnib. Bu virtuoz əsərin fortepianoda ilk ifaçısı görkəmli pianoçu, Xalq artisti Fərhad Bədəlbəyli olub.

## Tanınmış jurnalist Tahir Abbaslı dünyasını dəyişib

Mahir publisist, tanınmış jurnalist və yazıçı, uzun illər "Mədəniyyət" qəzetində fəaliyyət göstərmiş Tahir Abbaslı 18 iyul 2021-ci ildə, 73 yaşında vəfat edib.

İstedadlı publisist 2004-cü ildən taleyini "Mədəniyyət" qəzeti redaksiyası ilə bağlayıb. Müxtəlif illərdə müxbir, incəsənət, mədəniyyət siyasəti, elm və təhsil şöbələrinin müdiri, eləcə də redaktor vəzifələrində çalışıb. 2016-cı ildə yaşla əlaqədar təqaüdə çıxsa da, redaksiya ilə əlaqəsini kəsməyib, diqqətçəkən yazıları qəzetdə mütəmadi dərc olunub.

**_səh. 6_**

Bakıda Polad Həşimov adına park



**_səh. 2_**

Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın tərkibi müəyyənləşib

**_səh. 3_**




"Zəfər" kolleksiyası üçün "Ən yaxşı xalça"

**_səh. 8_**

№54-55 (1832)
23 iyul 2021
www.medeniyyet.az

# Avropa İttifaqı sülh əldə olunmasında konstruktiv rol oynamağa hazırdır

Mən vəziyyətlə əlaqədar və mümkün sülh sazişi çərçivəsində irəliləyişə nail olmaq üçün işin aparılmasının əhəmiyyəti ilə bağlı Ermənistanın hökumət başçısı ilə müfəssəl müzakirələr aparmışam. Biz çox konkret və aydın müzakirələr apardıq, regionda daha çox sabitliyin, təhlükəsizliyin təmin olunması üçün tərəfimizdən hansı elementlərin nəzərə alınmalı olduğu barədə söhbət etdik.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 18-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə keçirilən mətbuat konfransında "Sülh razılaşması üzərində danışıqlara başlamağa Ermənistanı inandırmaq üçün Avropa İttifaqı nə edə bilər" sualına cavabında belə deyib.

Şarl Mişel qeyd edib ki, Avropa İttifaqının mümkün qədər müsbət və konstruktiv rol oynamağa hazır olduğunu həm Azərbaycan Prezidentinə, həm də Ermənistan Baş nazirinə bildirib. "Əlbəttə ki, biz Minsk qrupunun oynadığı rola hörmət bəsləyirik" deyən Şarl Mişel əlavə edib ki, Avropa İttifaqı öz növbəsində regional tərəfdaşlıq çərçivəsində qarşılıqlı təmasları təşviq etməlidir: "Bu məqsədlə, fərqli mövqeləri anlamaq üçün dünən mən Ermənistanın hakimiyyət orqanları ilə, bu gün isə Azərbaycan Prezidenti ilə bu məsələlərin təfərrüatlarını müzakirə etdim. Məndə belə bir təəssürat var ki, infrastruktur imkanlarını gücləndirmək məqsədilə ümumi məxrəcə gəlmək imkanları mövcuddur".

Prezident İlham Əliyev isə birgə mətbuat konfransında ölkəmizin nəqliyyat infrastrukturunun regional sabitliyin və təhlükəsizliyin gücləndirilməsində rolu barədə sualı cavablandırarkən diqqətə çatdırıb ki, regionda bütün kommunikasiyalar eyni vaxtda açılmalıdır.

Kommunikasiyaların açılmasının Azərbaycana öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına Ermənistan ərazisi vasitəsilə maneəsiz çıxış əldə etmək imkanı verəcəyini vurğulayan İlham Əliyev qeyd edib ki, Ermənistan sərhədinə doğru dəmir yollarının və magistral yolun tikintisinə başlanılıb.

"Biz öz ərazimizdə Ermənistan ərazisinə 100 kilometrdən çox magistral və dəmiryolları tikməliyik. Ermənistan ərazisində bu, təxminən cəmi 40 kilometrdir. Regionda bütün kommunikasiyalar paralel olaraq açılmalıdır. Bu, Ermənistan üçün Rusiya və İranla dəmiryolu əlaqəsinə sahib olmaq imkanı yaradır. Bu, Azərbaycan üçün Naxçıvan Muxtar Respublikasına əlavə çıxış əldə etmək imkanı yaradır və regionun dörd ölkəsi - Azərbaycan, İran, Rusiya və Türkiyə bu yanaşmaya güclü dəstək verir. Beləliklə, biz Ermənistandan müsbət cavab almalıyıq, lakin bu cavab selektiv olmamalıdır. Qeyd etdiyim kimi, bütün kommunikasiyalar eyni vaxtda açılmalıdır və bu baxımdan ayrı-seçkilik olmamalıdır. Sözsüz ki, bundan sonra regionda proqnozlaşdırılma, sabitlik və təhlükəsizlik artıq reallığa çevriləcək. Bizim istədiyimiz budur", – deyə Azərbaycan Prezidenti əlavə edib.

# İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli

## İşçi qrupunun növbəti iclası keçirilib

Ötən dövr ərzində Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Ağdam, Xocavənd, Tərtər, Şuşa, Xocalı və Kəlbəcər rayonları üzrə cəmi 13 307 daşınmaz əmlakın (10 483 ədəd tikili və 2 824 ədəd infrastruktur obyekti) çöl inventarlaşdırma işləri tamamlanıb və Laçın rayonu ərazisində müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Bu barədə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə işçi qrupunun növbəti iclasında məlumat verilib.

Videoformatda keçirilən iclasda bildirilib ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın yekun layihəsi dövlət orqanları, müəssisə və təşkilatlarının, həmçinin Əlaqələndirmə Qərargahının müvafiq işçi qruplarının rəy və təkliflərinin təhlili əsasında hazırlanıb və Nazirlər Kabinetinə təqdim olunub.

İşğaldan azad edilmiş ərazilərdə (Kəlbəcər və Laçın rayonlarında) ilkin zəruri tələbatların ödənilməsi üçün gündəlik tələbat malları dükanları, aptek, bankomat, YDM və s. açılması məqsədilə müvafiq şirkətlərlə görüşlər keçirilib. Razılaşdırılmış qrafik və marşruta əsasən qeyd olunan rayonlar üzrə iyul ayı ərzində sahibkarların ərazilərə səfəri nəzərdə tutulur.

Vahid informasiya platforması rolunu oynayan Qarabağ Rəqəmsal Geo-İnformasiya Sisteminə 27 dövlət qurumu və təşkilatının 12-sinin qoşulması təmin edilib, digər aidiyyəti qurumların sistemə qoşulması istiqamətində işlər davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı 657 müraciət olub. İnvestisiya layihələrinin prioritetliyi ilə bağlı təhlil aparılır, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir.

Dövlət Turizm Agentliyinin nümayəndəsi işğaldan azad edilmiş ərazilərdə turizm və rekreasiya zonalarının və potensial turizm dəhlizləri boyunca turizm resurslarının qiymətləndirilməsi məqsədilə texniki şərtlər toplusunun hazırlanması haqqında məlumat verib.

Qarabağ Dirçəliş Fondunun nümayəndəsi diqqətə çatdırıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fond tərəfindən "Karabakh.Center" layihəsi həyata keçirilib və müvafiq internet məlumatlandırma portalı yaradılıb.

Təqdim olunan hesabatlar İşçi qrupunun üzvləri tərəfindən geniş müzakirə olunub və qərarlar qəbul edilib.

Qeyd edək ki, ölkə başçısının 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Münaqişədən sonrakı dövrün maksimum ağrısız keçməsini istəyirik

## Prezident İlham Əliyev: "Düşünürəm ki, ümumi səylərimizlə buna nail olacağıq"

Hərbi əməliyyatlar başa çatandan sonra ötən səkkiz ay ərzində, zənnimcə, yanvar ayında Moskvada şəxsən görüşümüz və telefon söhbətlərimiz vəziyyətin sabitləşdirilməsi işində çox mühüm rol oynayıb. Biz qətiyyətlə münaqişədən sonrakı dövrün maksimum ağrısız keçməsi əzmindəyik. Düşünürəm ki, ümumi səylərimizlə buna nail olacağıq.



Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri iyulun 20-də Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşdə deyib. Qeyd edək ki, Prezident İlham Əliyev həmkarı Vladimir Putinin dəvəti ilə Rusiyaya birgünlük işgüzar səfər edib.

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun bildirdiyinə görə, dövlət başçılarının iki saata yaxın davam edən görüşündə iqtisadi əməkdaşlıq məsələləri, koronavirusla mübarizə və birgə vaksin istehsalı, həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin qəti həlli müzakirə edilib. Kreml sözçüsü prezidentlərin görüşünün gündəliyi barədə danışarkən münaqişədən sonrakı vəziyyətlə bağlı məsələni axırıncı qeyd etsə də, məlumdur ki, məhz bu məsələ bizim üçün birinci dərəcəli əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidenti görüşün mətbuat üçün açıq keçən hissəsində regionda münaqişədən sonrakı vəziyyətin gündəm mövzulardan biri olduğunu vurğulayaraq, Rusiyanın dövlət başçısına bu məsələyə daimi diqqətinə, "çox vacib və həssas məsələlərin həllində" şəxsən iştirakına görə təşəkkürünü bildirib.

Rusiya Prezidenti görüşün əvvəlində həmkarını Qurban bayramı münasibətilə təbrik edərək diqqətə çatdırıb ki, gələn il bizim böyük bayramımız olacaq – iki dövlət arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunacaq. "Allaha şükür, koronavirusdan sonra münasibətlərimiz bərpa olunur, ilk növbədə, iqtisadiyyatı nəzərdə tuturam. Keçən il müəyyən azalma olmuşdu, indi inamlı artım, bərpa gedir" deyən Putin əlavə edib ki, yaxın vaxtlarda Rusiyadan Azərbaycana nüfuzlu nümayəndə heyəti göndəriləcək: "Bu nümayəndə heyəti həmin məsələlərlə artıq Bakıda məşğul olacaq. Onlar müxtəlif məkanlarda müntəzəm surətdə görüşürlər. Bu, müxtəlif istiqamətlər üzrə qarışıq qrup olacaq. Həm sənaye, həm nəqliyyat, həm infrastruktur və bəzi başqa məsələlər nəzərdə tutulur".

İki ölkənin koronavirusa qarşı mübarizədə get-gedə daha fəal əməkdaşlıq etdiyini bildirən Rusiya Prezidenti vurğulayıb ki, Azərbaycan ərazisində vaksinin birgə istehsalının genişləndirilməsi üzərində də işləyirik.

Sonra Prezident Putin regionda münaqişədən sonrakı vəziyyətə toxunub və qeyd edib ki, bu vəziyyətin nizamlanması ən mühüm məsələlərdən biri olaraq qalır. "Əlbəttə, bilirəm ki, Siz bu məsələyə çox böyük diqqət və əhəmiyyət verirsiniz. Buna görə Sizə təşəkkür etmək istəyirəm ki, kompromisli qərarlar tapılır. Onlar həmişə ən mürəkkəb məsələlərdir, lakin əgər biz nizamlama istəyiriksə, – biz hamımız isə bunu istəyirik, – onda bu yolla getməliyik. İndiyə qədər biz bunu etməyə nail olmuşuq, buna görə Sizə təşəkkür etmək istəyirəm", – deyə o bildirib.

Azərbaycan Prezidenti bu səfərin qarşılıqlı fəaliyyətlə bağlı mühüm məsələləri yenidən müzakirə etmək üçün yaxşı imkan olduğunu vurğulayaraq bayram təbrikinə görə həmkarına təşəkkürünü bildirib: "Fürsətdən istifadə edib Rusiyanın bütün müsəlmanlarını Qurban bayramı münasibətilə təbrik etmək istərdim. Bu, həmrəylik bayramı, birlik bayramıdır".

İkitərəfli iqtisadi münasibətlərdən danışan İlham Əliyev qeyd edib ki, ilin birinci yarısında əmtəə dövriyyəsi artıb: "Bu, çox vacibdir, çünki keçən il bizdə 10 faizdən çox azalma olmuşdu. Nəqliyyat-tranzit münasibətləri məsələsində də əməkdaşlığı fəal surətdə genişləndiririk. Mənə verilən məlumata görə, Şimal-Cənub nəqliyyat dəhlizi üzrə keçənilki ilə müqayisədə təqribən 20 faiz çox yük daşınıb. Beləliklə, bu dəhliz artıq işləyir, demək olar ki, geniş həcmdə".

Dövlət başçısı koronavirusa qarşı mübarizədə köməyə görə Rusiya rəhbərinə təşəkkür edib: "Biz Rusiyadan 200 min dozadan artıq "Sputnik V" vaksini almışıq və bu vaksinin yenə göndərilməsi gözlənilir. Bilirəm ki, onu almaq istəyənlərin sayı lap çoxdur. Ona görə ki, bu vaksin öz effektivliyini sübut edib və əlbəttə, yəqin ki, hamını təmin edə bilmək də çox çətindir. Lakin Sizin dostlarınız, tərəfdaşlarınız kimi bir daha təşəkkürümü bildirmək istəyirəm ki, biz vaksini alanlar arasında ilk sıralardayıq".

Azərbaycan Prezidenti onu da diqqətə çatdırıb ki, bu il Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialının birinci buraxılışı olub. Qeyd edib ki, Bakıdakı iki filialda – MDU-nun və Seçenov Universitetinin filiallarında mindən çox tələbə təhsil alır. Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayı 15 mindən çoxdur. Azərbaycanda isə 16 min tələbə rus dili bölməsində təhsil alır.

"Beləliklə, Azərbaycan gənclərinin belə bir böyük dəstəsi artıq Rusiya ilə dil, ünsiyyət və təhsil vasitəsilə bağlıdır. Düşünürəm ki, bizim təcrübəmizi böyüməkdə olan nəslə əməli surətdə ötürmək çox vacibdir", – deyə İlham Əliyev vurğulayıb.

# Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin heyəti Füzuli və Ağdamda olub

Xəbər verdiyimiz kimi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana və nəşriyyat işi üzrə əməkdaşlarından ibarət nümayəndə heyəti ötən həftə Azərbaycana səfər edib. Nümayəndə heyəti səfər çərçivəsində işğaldan azad olunmuş Füzuli və Ağdam rayonlarında da olublar.




Qonaqları Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatla iş şöbəsinin müdiri Akif Marifli, şöbənin baş məsləhətçisi İslam Hüseynov və Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov müşayiət ediblər. Nümayəndə heyətinə Qarabağda dağıdılmış 900-dən çox kitabxana haqqında məlumat verilib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Kitabxanalar və Yayımlar Baş idarəsinin müdiri, Türkiyə Milli Kitabxanasının direktoru Ali Odabaş, direktor müavini Taner Beyoğlu, bölmə rəhbəri Ahmet Aldemir, mədəniyyət və turizm məsələləri üzrə mütəxəssis Fatih Özdemir ermənilərin otuz ilə yaxın davam edən işğal dövründə törətdikləri hərbi cinayətlərin izləri ilə tanış olaraq, mədəni irsin məhv edilməsini, o cümlədən kitabxanaların dağıdılmasını barbarlığın təzahürü adlandırıblar.

# Paytaxtın Xətai rayonunda Polad Həşimov adına park

İyulun 22-də Bakının Xətai rayonunda Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimov adına parkın açılışı olub.

Mərasimdə Polad Həşimovun ailə üzvləri və hərbçi dostları iştirak ediblər.

Qeyd edək ki, bir müddət öncə Xətai rayonunun icra başçısı Rafiq Quliyevin müraciəti əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısı Eldar Əzizovun sərəncamı ilə Naximov küçəsinin adı dəyişdirilərək Polad Həşimov küçəsi adlandırılıb. Həmin küçədə yerləşən parka Polad Həşimovun adı verilib. Park əsaslı təmir edilib, burada Polad Həşimovun və 2020-ci il iyulunda Tovuz döyüşlərində həlak olmuş hərbçilərimizin xatirəsinə memorial lövhə qurulub. Mərasimdə general Polad Həşimovun və digər şəhidlərin xatirəsinə ağaclar əkilib.



# Fransa portalı azad edilmiş ərazilərin minalardan təmizlənməsindən yazır

Fransanın "La Croix" portalında "Azərbaycanda uzun müddət davam edəcək minatəmizləmə başlayır" adlı məqalə dərc edilib.

Məqalədə 1990-cı illərdə erməni işğalı nəticəsində doğma yurdundan didərgin düşən azərbaycanlıların dönüşünə minaların mane olduğu diqqətə çatdırılıb, Qarabağ müharibəsi haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan əraziləri Ermənistan tərəfindən 2 mərhələdə minalanıb: 1990-cı illərdə və 44 günlük müharibə zamanı erməni silahlı qüvvələri geri çəkilərkən. Qeyd edilir ki, Azərbaycanın azad etdiyi ərazilərinin minadan təmizlənməsi 10 il davam edə bilər.

Vurğulanır ki, 30 ildir doğma yurdundan didərgin düşən azərbaycanlılar bu gün minalara görə doğma torpaqlarına qayıda bilmirlər. Ərazilərdə mina xəbərdarlığı ilə bağlı məlumatlandırıcı işarələr qoyulmasına baxmayaraq, 30 ildir doğma yurdlarının həsrəti ilə yaşayan azərbaycanlılar evlərini görmək üçün azad edilmiş yurdlarına gəlirlər. Yazıda bu günədək minalardan 17 mülki şəxsin, habelə iki azərbaycanlı jurnalistin və bir zabitin mina qurbanı olduğu bildirilir.

# Şuşaya həsr olunmuş poster sərgisi

## Əsərlərin qəbulu sona çatıb

"Şuşa Azərbaycanın mədəniyyət şəhəridir" adlı beynəlxalq poster sərgisinə əsərlərin qəbulu başa çatıb. Sərgi "Kreativ Azərbaycan", "PosterİM", "Worldwide Graphic Designers", "Calanca Biennale 2021", "RİNC Red İnternacional De Creadores Visuales" qurumlarının birgə əməkdaşlığı ilə təşkil edilir.

Layihənin rəhbəri, "PosterİM" şirkətinin təsisçisi Tərlan Hacı Şəmiyevlə əlaqə saxlayıb sərgi ilə bağlı məlumat aldıq. Həmsöhbətimiz bildirdi ki, beynəlxalq münsiflərdən ibarət sərginin məqsədi Şuşanın mədəni irsini, memarlığını, xarıbülbül simvolunu dünyaya tanıtmaqdır. İyulun 15-dək sərgiyə 30-dan çox ölkədən iştirakçı əsər göndərib. Beynəlxalq və yerli münsiflər tərəfindən qiymətləndirilən işlərdən 108 poster sərgidə iştirak üçün seçilib.

Layihə rəhbəri qeyd etdi ki, münsiflər heyətinə ABŞ-ın Suffolk, Cənubi Koreyanın Namseul universitetlərinin dizayn üzrə professorları, eləcə də Azərbaycan, Türkiyə, İndoneziya, Yaponiya və digər ölkələrdən dizaynerlər daxildir. Sərgi avqustun 2-də Ankara Musiqi və Gözəl Sənətlər Universitetində açılacaq və onlayn yayımlanacaq. Seçilmiş müəlliflərə iştirakçı sertifikatı veriləcək və onlar birbaşa beynəlxalq poster festivalına iştirak vəsiqəsi qazanacaqlar.



**LALƏ**

# "Qarabağa kitabla gedək"

## Mədəniyyət Nazirliyi və Milli Kitabxananın həyata keçirdiyi aksiyaya Türkiyədən 10 min nüsxə kitab töhfəsi

*əvvəli səh. 1-də*

Kərim Tahirov İLESAM təşkilatının 10 min nüsxə kitabı Qarabağda yaradılacaq kitabxanalara bağışladığını, tezliklə həmin kitabların Qarabağda qurulan kitabxanalara təqdim ediləcəyini dedi.

Mədəniyyət naziri Anar Kərimov qonaqları salamlayaraq bildirdi ki, Vətən müharibəsindən sonra da qardaş Türkiyə dövləti Azərbaycanın yanındadır. Türkiyə dağıdılmış şəhərlərin yenidən qurulmasında, tarixi-mədəni abidələrin bərpa edilməsində dəstəyini əsirgəmir: "İşğal dövründə ən çox zərər çəkən mədəniyyət müəssisələrindən biri də kitabxanalar olub. 975 kitabxanamız dağıdılaraq yerlə yeksan olunub, onların 4,6 milyon nüsxədən artıq kitab fondları talan edilərək yandırılıb. Mədəniyyət Nazirliyi olaraq Milli Kitabxana ilə birlikdə həmin kitabxanalar bərpa olunduqdan sonra fondlarının bərpası məqsədilə belə bir layihələyə başladıq. Qərara aldıq ki, Qarabağ kitab fondu yaradılsın və hər bir azərbaycanlı buna dəstək olsun. Eyni zamanda qardaş Türkiyədən İLESAM təşkilatı da bizim çağırışımıza dərhal dəstək verərək 10 min kitabı fondumuza bağışladı. Yaxın zamanlarda həmin kitablar doğma Qarabağda oxunacaq".



Azərbaycan-Türkiyə əməkdaşlığından söz açan Anar Kərimov söylədi ki, iki ölkə arasında mədəniyyət, kitabxana və nəşriyyat sahəsində əlaqələr bundan sonra da yüksək səviyyədə davam etdiriləcək. Nazir çıxışının sonunda təqdim olunan kitablara görə İLESAM təşkilatına təşəkkürünü bildirdi.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar ölkəmizdə Türkiyə dövlətinə qarşı hər zaman böyük sevgi oluğunu vurğuladı. Bildirdi ki, Şuşanın mədəniyyət paytaxtı elan edildiyi bir dövrdə türkiyəli qardaşlarımız tərəfindən bu kitabların hədiyyə olunmasının böyük əhəmiyyəti var. Gün gələcək həmin kitablar Şuşa, Qarabağ kitabxanalarını bəzəyəcək.

Türkiyənin ölkəmizdəki səfiri Cahid Bağçı iki ölkənin qardaşlığının bundan sonra da davam edəcəyini dedi. Səfir türk xalqının çox sevdiyi "Kitab ən gözəl hədiyyədir" şüarını səsləndirərək bildirdi ki, Türkiyə Azərbaycana, bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlindən gələn köməkliyi göstərəcək.



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxışında Fondun iki üzv dövləti – Azərbaycan və Türkiyənin bu gün yenə öz birliklərini nümayiş etdirdiyini söylədi. Bildirdi ki, 44 günlük Vətən müharibəsində beynəlxalq təşkilat olaraq Qarabağla bağlı türkdilli dövlətlərdən bir çox dəstək məktubu alırdıq. Müharibədə qazanılan Qələbə təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının zəfəridir.

Türkiyə Milli Kitabxanasının direktoru Ali Odabaş tədbir iştirakçılarına Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyun salamlarını çatdırdı, həyata keçirilən kampaniyanın əhəmiyyətini vurğuladı.

Türkiyə Elm və Ədəbi Əsər Sahibləri Birliyinin (İLESAM) rəhbəri Mehmet Nuri Parmaksız "Qarabağa kitabla gedək" aksiyası üçün kitabların toplanması barədə məlumat verdi. Qeyd etdi ki, təmsil etdiyi təşkilatı dəstəkləyən qurumlar olmasaydı, belə bir layihəni həyata keçirmək mümkün olmazdı.

Daha sonra Mehmet Nuri Parmaksız "Alim, şair, yazıçı və sənətçilər ensiklopediyası" kitabını mədəniyyət naziri Anar Kərimova hədiyyə etdi.

Sonda tədbir iştirakçıları Türkiyədən Milli Kitabxanaya hədiyyə olunan kitabların sərgisi ilə tanış oldular.

**NURƏDDİN**

# "Mədəniyyət naminə sülh" qlobal kampaniyası çərçivəsində onlayn görüş

"Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası çərçivəsində onlayn görüş keçirilib. İyulun 17-də gerçəkləşən görüşdə Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə, Böyük Britaniyanın Koventri Universitetində Sülh, Etimad və Sosial Münasibətlər İnstitutunun qurucusu və rəhbəri, professor Mayk Hardi, Avstraliyanın Mədəni İnfuziya və Müxtəliflik Atlasının təsisçisi Peter Musaferaidis, HOPE təşkilatının qurucusu Xavyer Qonzalez, digər şəxslər iştirak ediblər.

Vasif Eyvazzadə "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının əsas hədəfləri, mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi", bu platforma əsasında ənənəvi olaraq keçirilən Bakı Beynəlxalq Humanitar Forumu, Dünya Mədəniyyətlərarası Dialoq Forumu mövzusunda danışıb. Qeyd edib ki, Azərbaycan tərəfinin məqsədi regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, xalqlar və mədəniyyətlər arasında uğurlu dialoq və etimadın qurulması, birgə yaşamaq və bir-birinə hörmət mədəniyyətini daha da inkişaf etdirərək, milli və beynəlxalq səviyyəli davamlı tərəqqiyə nail olmaqdan ibarətdir.

Vurğulanıb ki, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın işğaldan azad edilən torpaqlarına geri dönəcək məcburi köçkünlərin yeni həyat şəraitinə uyğunlaşması, mədəniyyət və yaradıcılıq qabiliyyətlərinin artırılması, yaradıcı peşə və layihələrin inkişaf etdirilməsi yolunda fəaliyyət davam etdiriləcək.



Daha sonra HOPE təşkilatının rəhbəri X.Qonzalez təşkilatın missiya və vəzifələri barədə təqdimat edib. O, həmçinin miqrant və qaçqınların təhsil, peşə vərdişlərinin formalaşdırılması haqda bir sıra vacib məsələlərdən və layihələrdən bəhs edib.

Son 8 ildə "Bakı Prosesi" ilə bağlı tədbirlərdə Azərbaycan tərəfin məsləhətçisi olduğunu vurğulayan professor Mayk Hardi bu platformada bütün mühüm layihələrin, həmçinin Azərbaycan Mədəniyyət Nazirliyinin irəli sürdüyü "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Görüşün sonunda müzakirə olunan təşəbbüs və layihələr istiqamətində birgə yol xəritəsinin hazırlanması barədə razılığa gəlinib.

# Teatr Xadimləri İttifaqında mükafatlandırma mərasimi



İyulun 22-də Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) Milli Mətbuat Günü münasibətilə mərasim keçirilib. Mərasimdə ATXİ-nin sədri, Xalq artisti, professor Azər Paşa Nemətov, sədr müavini, Xalq artisti Hacı İsmayılov, media nümayəndələri və ittifaqın əməkdaşları iştirak ediblər.

Tədbiri Azər Paşa Nemətov açaraq Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini təbrik edib, mətbuatımızın tarixindən, mədəniyyət sahəsində medianın rolundan bəhs edib.

Sonra media mənsubları milli teatr sənətinin inkişafında xidmətlərinə görə Azərbaycan Teatr Xadimləri İttifaqının fəxri fərmanları ilə təltif olunub. Təltif olunanlar arasında "Mədəniyyət" qəzetinin əməkdaşı Gülcahan Mirməmməd də var.

Mərasimdə həmçinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktrisası, Əməkdar artist Nahidə Orucovaya 60 illik yubileyi münasibətilə ATXİ-nin "Sənətkar" medalı təqdim edilib.

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın üzvləri seçilib

Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın doqquz nəfərdən ibarət tərkibi müəyyənləşib. İyulun 16-da İctimai Şuraya seçkilərin ikinci mərhələsində səkkiz üzv seçilib.

"İctimai iştirakçılıq" haqqında Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnaməsinə uyğun olaraq, tələb olunan səs çoxluğunu toplamış namizədlər İctimai Şuranın üzvü seçiliblər.

Xatırladaq ki, iyulun 13-də seçkilərin birinci mərhələsi keçirilmiş və tələb olunan səs çoxluğunu toplamış bir namizəd İctimai Şuraya üzv seçilmişdi.

Beləliklə, Mədəniyyət Nazirliyi yanında İctimai Şura aşağıdakı tərkibdə formalaşıb:

- **Əlibəyov Gəray Ayaz oğlu** – "Mədəni İnkişaf Mərkəzi" İctimai Birliyi
- **Abdulova Cəmilə Çingiz qızı** – "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İctimai Birliyi
- **Qədirov Şahin Kərim oğlu** – "Zirvə" Mədəniyyət və İncəsənət İctimai Birliyi
- **Mustafayeva Samirə Vəli qızı** – "Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyi
- **Nəsibova Bəsti Mahmud qızı** – "Gələcəyə Baxış" Avropaya İnteqrasiya İctimai Birliyi
- **Rəhimli Davud Səid oğlu** – "Əlil Təşkilatları İttifaqı"
- **Verdiyeva Bəyimxanım İsfəndiyar qızı** – Xan Şuşinski Fondu
- **Yolçuyev Əkbər Mehdi oğlu** – Dünya Gənc Türk Yazarlar Birliyi
- **Zeyni Rauf Xurşud oğlu** – Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu

# Mədəniyyət naziri Milli Mətbuat Günü münasibətilə media mənsublarını təbrik edib

Mədəniyyət naziri Anar Kərimov Milli Mətbuat Günü münasibətilə Azərbaycanın kütləvi informasiya vasitələrinə, media mənsublarına təbrik müraciəti ünvanlayıb.

Müraciətdə deyilir:

22 iyul hər bir azərbaycanlının taleyində olduqca önəmli tarixdir. Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasının 146 ili tamam olur. Çünki məhz 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında yeni, parlaq səhifə açılıb.

Tarix boyu xalqımızın böyük mütəfəkkirlərinin, ədiblərinin, dövlət xadimlərinin fəaliyyətində milli məfkurənin təbliği, dilimizin, mədəni dəyərlərimizin qorunması kimi ali dəyərlər hər zaman özünü göstərib.

Bu cəhətləri ömür yoluna sığdıran aydınlarımızdan biri də vətənpərvər ziyalı, təbiətşünas-alim Həsən bəy Zərdabidir.

146 il əvvəl 22 iyul tarixində Həsən bəy Zərdabi min bir əzab-əziyyətdən sonra ana dilində ilk qəzetin çapına müvəffəq olmuşdu. 1875-ci ilin 22 iyul tarixindən 1877-ci ilin 29 sentyabr tarixinə qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Bu müddət ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb.

Sevindirici haldır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan - qəzet və jurnal fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur.

Müstəqil Azərbaycanın memarı, Ümummilli lider Heydər Əliyev fəaliyyəti boyu mehriban dost münasibətilə jurnalistlərin də dərin sevgisini, güvənini qazanmışdı. Ulu öndərin bu ənənəsi bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısı mütəmadi olaraq çıxışlarında, jurnalist ictimaiyyəti ilə görüşlərində mətbuat nümayəndələrinin söz azadlığının vacibliyini, onların fəaliyyətlərini diqqət mərkəzində saxladığını bildirir. Jurnalistlərin təklif və problemləri ilə yaxından maraqlanır. Təsadüfi deyil ki, mətbuat nümayəndələri cənab Prezidentimizi jurnalistlərin dostu adlandırırlar.

Buna misal olaraq 44 günlük Vətən müharibəsi və şanlı Qələbəmizdən sonrakı dövrü xatırlatmaq istərdim. Ön cəbhədə Ali Baş Komandanın rəhbərlik etdiyi şücaətli Ordumuz, arxa cəbhədə, informasiya mübarizəsində isə zəhmətkeş jurnalistlərimiz mərdliklə vuruşmasaydı, dəmir yumruq kimi birləşib, həmrəylik nümayiş etdirməsəydi, dünya ictimaiyyətinə haqq səsimizi çatdırmaq da mümkün olmayacaqdı. İşğaldan azad edilmiş doğma torpaqlarımızda vəzifə borcunu yerinə yetirərkən şəhidlik zirvəsinə ucalan jurnalistlərimiz Məhərrəm İbrahimov və Sirac Abışov kimi qəhrəmanlarımız sadalananların bariz nümunəsidir. Bu bir daha sübut edir ki, peşəmizdən asılı olmayaraq hər birimiz müqəddəs Azərbaycanın müsəlləh əsgəriyik.

Əkinçi zəhməti, biləyinin gücü, qəlbinin hərarəti ilə milli mətbuatımızın inkişafı, sağlam gələcəyi, bölgədə sülh və təhlükəsizlik naminə informasiya toxumları səpən Zərdabi davamçılarını Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin bütün əməkdaşları adından ürəkdən təbrik edirik. Nazirliyimizin bütün yeniliklərini, layihə və struktur fəaliyyətlərini qərəzsiz işıqlandırdığınıza görə hər birinizə ürəkdən təşəkkür edirik. Sizinlə daha sıx, məhsuldar əməkdaşlığımızı davam etdirmək üçün öhdəmizə düşən vəzifəni bundan sonra da yerinə yetirəcəyimizə əmin ola bilərsiniz.

Bir daha milli mətbuat ailəsinin üzvlərini ürəkdən təbrik edir, bütöv Azərbaycanın hər bir nöqtəsindən sədanızın eşidilməyini arzulayıram.

***

Qeyd edək ki, Mədəniyyət naziri Anar Kərimovun tövsiyəsinə əsasən, 22 iyul – Milli Mətbuat Günü münasibətilə Azərbaycan xalqının zəngin mədəni irsi və qədim tarixi ilə yaxından tanış olmaq məqsədilə media nümayəndələri və onların ailə üzvləri üçün Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən muzeylərə sərbəst giriş – "Açıq qapı" aksiyası elan olunub.

# "Dahi ziyalımız Həsən bəy Zərdabi..."

Dövlət Tarix Arxivində mühafizə edilən sənədlər əsasında 22 iyul – Milli Mətbuat Gününə həsr olunmuş "Dahi ziyalımız Həsən bəy Zərdabi..." adlı virtual sərgi hazırlanıb.




Milli Arxiv İdarəsindən bildirilib ki, sərgidə görkəmli ictimai xadim, publisist, Azərbaycan dilində ilk qəzetin yaradıcısı, uzun illər Bakı şəhər Dumasının üzvü olmuş Həsən bəy Zərdabinin ictimai sahədə fəaliyyətinə aid olan sənədlərdən bir qismi nümayiş etdirilir. Sözügedən sənədlərdə Həsən bəy Zərdabinin azərbaycanlılar arasında təhsilin, maarifçiliyin geniş vüsət alması üçün həyata keçirdiyi tədbirlər, ana dilində qəzetin nəşrinə icazə verilməsi üçün dövrün hakimiyyət orqanlarına müraciətləri, həmçinin Duma üzvü kimi fəaliyyəti və s. əks olunub.

# Mətbuatımızın bayramına həsr olunmuş virtual sərgi

22 iyul – Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur. Dövrün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olub, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirib, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayıb.

Azərbaycanda maarifçilik hərəkatının formalaşmasında əsas rol oynamış "Əkinçi"nin əsas məqsədi fanatizmi, cəhaləti aradan qaldırmaq, xalqı elmə, maarifə, tərəqqiyə çağırmaq, onun elmi-mədəni səviyyəsini yüksəltmək olub.

Milli Mətbuat Günü münasibətilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən virtual sərgi hazırlanıb.

Kitabxanadan bildirilib ki, virtual sərgidə Azərbaycan milli mətbuatının inkişafına dair rəsmi sənədlər, mətbuat və jurnalistikamızın inkişaf tarixini əks etdirən kitab və məqalələr nümayiş olunur.

## Qubada "Media şəhidləri" parkı açılıb

22 iyul – Milli Mətbuat Günündə Quba şəhərində "Media şəhidləri" parkının açılışı olub. Şəhərin Yusif Qasımov küçəsində yerləşən parkda Birinci və İkinci Qarabağ müharibələri ilə bağlı peşə fəaliyyətini yerinə yetirən zaman şəhid olmuş media nümayəndələrinin xatirəsi əbədiləşdirilib.



Parkda media əməkdaşlarının döyüş şəraitində işini simvolizə edən abidə ucaldılıb. Abidənin arxasındakı pannoda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin kütləvi informasiya vasitələri haqqında söylədiyi fikirlər qeyd olunub.

Parkın açılış mərasimində rayon İcra Hakimiyyəti başçısı Ziyəddin Əliyev çıxış edərək bildirib ki, 146 il əvvəl əsası Həsən bəy Zərdabi tərəfindən qoyulan Azərbaycan mətbuatı ötən dövrdə tarixi inkişaf yolu keçib. Diqqətə çatdırılıb ki, Azərbaycanın media əməkdaşları şanlı Qələbəmizlə başa çatan Vətən müharibəsində döyüş bölgəsində şərəflə öz vəzifələrini yerinə yetiriblər. Yeni salınan parkda erməni terrorunun qurbanı olan bütün media nümayəndələrinin, o cümlədən 2021-ci il iyunun 4-də Kəlbəcərdə mina partlaması nəticəsində şəhid olan AzTV-nin operatoru Sirac Abışovun və AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimovun xatirəsi əbədiləşdirilib.

Regionda fəaliyyət göstərən jurnalistlər çıxış edərək mətbuat tariximizdən söz açıblar. Bildirilib ki, milli mətbuatımızın banisi Həsən bəy Zərdabi 1868-ci ildə Qubada məhkəmə katibi vəzifəsində işləyib. Onun adını daşıyan qəsəbə Qubanın iri yaşayış məntəqələrindəndir.

Diqqətə çatdırılıb ki, Azərbaycanda ilk rayon qəzeti Qubada nəşrə başlayıb. 1921-ci il aprelin 21-də "Əxbar" adı ilə işıq üzü görən bu mətbu orqan sonralar "Yeni dirilik", "Şəfəq", "Qızıl Quba" və s. adlarla nəşr olunub. 1995-ci ildən "Şəfəq" adı ilə nəşri davam edir.

# Mətbuat Şurası jurnalistlərin peşə bayramını Qarabağ bölgəsində qeyd edib

Azərbaycan Mətbuat Şurası 22 iyul – Milli Mətbuat Gününü kütləvi informasiya vasitələrinin Qarabağ bölgəsi üzrə əməkdaşları ilə birgə qeyd edib. Şura bu münasibətlə Tərtər Rayon İcra Hakimiyyəti ilə birgə toplantı keçirib.

Tədbiri giriş sözü ilə rayonun icra başçısı Müstəqim Məmmədov açaraq bildirib ki, 44 gün davam etmiş Vətən müharibəsində, ölkəmizin digər bölgələri kimi, cəbhə xəttində yerləşən Tərtərin əhalisi, rayonun müəssisə və təşkilatları bütünlüklə bu haqq savaşında qalibiyyətə köklənmiş, hər kəs bu yolda əzmlə çalışmış, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək sarsılmaz qətiyyət nümayiş etdirmişdi. "Bu əzmi, qətiyyəti özünün əməli fəaliyyəti ilə göstərənlər sırasında da jurnalistlər – kütləvi informasiya vasitələrinin bölgə üzrə əməkdaşları da xüsusi fəallıqları ilə seçilmişdilər. Bu missiya eyni zamanda vahid hədəf uğrunda dövlət və media əməkdaşlığı baxımından nümunə idi", – deyən icra başçısı media nümayəndələrini təbrikləri çatdırıb.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov da KİV əməkdaşlarını 22 iyul – Milli Mətbuat Günü ilə bağlı təbrik edib, əsası dahi mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən qoyulmuş milli mətbuatımızın ictimai fikir tariximizdə oynadığı müstəsna roldan söz açıb. Ə.Amaşov bildirib ki, Mətbuat Şurası ilk dəfə bu əlamətdar tarixi ancaq regionda qeyd edir: "Bununla 44 günlük Vətən müharibəsində jurnalistikanın, xüsusən də bölgələrdə fəaliyyət göstərən jurnalistlərimizin rolunu vurğulamaq istəyirik. Sizlərin bu əməyi həm peşə borcuna həssas yanaşma idi, həm də vətənpərvərlik".



MŞ sədri çıxışında rəhbərlik etdiyi qurumun Vətən müharibəsi müddətində həyata keçirdiyi fəaliyyət barədə də geniş məlumat verib. Qeyd edib ki, müharibədə əsgər və zabit kimi döyüşmüş jurnalistlər də olub. MŞ onları daim diqqətdə saxlayıb, ailələri ilə müntəzəm təmaslar qurub. "Tərtər müharibə zamanı düşmənə ləyaqətlə sinə gərən rayonlarımızdandır. Tərtər ermənilərin atdıqları müxtəlif növ raket atəşlərindən xeyli ziyan görmüş, rayon ərazisinə və mərkəzinə dəfələrlə mərmilər düşmüşdü. Mən özüm iki dəfə burada oldum. Nə qədər gərgin şəraitin hökm sürdüyünü gördüm. Eyni zamanda insanlardakı ruh yüksəkliyini də hiss etdim, duydum. Hər kəs Ali Baş Komandanın müsəlləh əsgəriydi. Sizlər də bu şəraitdə işləmisiniz, zəhmətə, əziyyətə və məhrumiyyətə qatlaşmısınız, öz peşə borcunuzu ləyaqətlə yerinə yetirmisiniz", – deyə Ə.Amaşov əlavə edib.

MŞ sədrinin müavini, Jurnalistlər Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli çıxışında diqqətə çatdırıb ki, indiyədək Qarabağ müharibəsində 20-dək jurnalist şəhid olub. İkinci Qarabağ müharibəsi zamanı isə 34 jurnalist cəbhədə döyüşçü kimi iştirak edib. Çox şükür ki, onların hamısı evlərinə, doğmalarının yanına sağ-salamat qayıdıb. MŞ İdarə Heyətinin üzvü, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli, "Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə milli mətbuatımızın yaranmasının 146-cı ildönümü münasibətilə həmkarlarına təbriklərini çatdırıblar.

Toplantının sonunda KİV-lərin Qarabağ bölgəsi üzrə 30-dan çox əməkdaşı Vətən müharibəsi zamanı peşə fəaliyyətinə həssas yanaşdığına və Azərbaycan ictimaiyyətinin operativ informasiyalarla təmin edilməsində aktiv iştirakına görə MŞ-nin və Tərtər RİH-in birgə diplomu ilə təltif ediliblər.

KİV-lərin Qarabağ bölgəsi üzrə əməkdaşları çıxış edərək zəhmətlərinə verilən qiymətə görə təşəkkürlərini bildiriblər.

### Bölgələrdən xəbərlər

## Mətbuat cəmiyyətin güzgüsüdür

İyulun 22-də Azərbaycan milli mətbuatının 146 yaşı tamam oldu. Milli Mətbuat Günü münasibətilə bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Heydər Əliyev Mərkəzi "Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda milli mətbuatın inkişafı üçün geniş imkanlar yaradıldı" mövzusunda videokonfrans keçirib. Çıxış edənlər 146 il öncə Azərbaycan milli mətbuatının əsasının qoyulmasını milli düşüncə tarixinin şanlı səhifəsi kimi dəyərləndiriblər.



Sabirabad Regional Mədəniyyət İdarəsində AzTV, ARB telekanalları, AZƏRTAC və APA informasiya agentliklərinin bölgə büroları əməkdaşlarının iştirakı ilə görüş keçirilib. Regional idarənin rəisi Fərid Qurbanzadə milli mətbuatımızın yaranmasının 146-cı ildönümü münasibətilə media nümayəndələrini təbrik edib və idarənin KİV-lə əməkdaşlığından məmnunluğunu bildirib.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Sarayı Milli Mətbuat Günü münasibətilə videoçarx hazırlayıb. Yevlax şəhər MKS-nin kənd kitabxana filialları isə əlamətdar günlə bağlı videoçarxlar ərsəyə gətiriblər.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mərkəzi Kitabxanasında "Mətbuat cəmiyyətin güzgüsüdür" mövzusunda tədbir təşkil edilib. Tədbirdə Milli mətbuatımızın inkişaf yoluna nəzər salınıb.

Şəki Regional Mədəniyyət İdarəsi Oğuz rayon Mərkəzi Kitabxanasında Milli Mətbuat Günü münasibətilə konfrans təşkil edilib. Tədbirdə Oğuz Rayon İcra Hakimiyyətinin, "Oğuz yurdu" qəzetinin, rayon Tarix-Diyarşünaslıq Muzeyinin, Heydər Əliyev Mərkəzinin, MKS-nin əməkdaşları və fəal oxucular iştirak ediblər.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanası və filialları "Ənənələri qoruyan Azərbaycan mətbuatı" adlı onlayn tədbir keçirib. MKS-nin direktoru Solmaz Nağıyeva mətbuat işçilərini bayram münasibətilə təbrik edib. Daha sonra mövzu ətrafında çıxışlar olub.

Mətbuatımızın yaranmasının 146-cı ildönümü münasibətilə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki Rayon Komitəsində tədbir keçirilib. Tədbirdə çıxış edən Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalova media nümayəndələrini bayram münasibətilə təbrik edib, zəngin tarixi və şanlı ənənələri olan Azərbaycan milli mətbuatının keçdiyi şərəfli yoldan söz açıb.



Sumqayıt Regional Mədəniyyət İdarəsinin əməkdaşları Vətən müharibəsi şəhidləri Şöhrət Qasımov, Rüfət Əhmədzadə, Nurlan Nuruzadə, Əlizamin Mustafalı, Şirbala Hüseynov, Samir Nadirov, Fərid Məmmədov, Qəzənfər Mütəllimov, Nicat Eyvazlının evlərində olub, qayğıları ilə maraqlanıblar. Qubadlı Rayon Mədəniyyət İşçiləri Həmkarlar Komitəsinin əməkdaşları Vətən müharibəsi şəhidi Vüsal Allahverdiyevin ailəsinə baş çəkib, qazi Mir İsmayıl Kazımovu ziyarət ediblər. Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzində II Qarabağ müharibəsi şəhidi Əlizamin Mustafalının doğum gününə həsr olunan anım tədbiri keçirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə bir qrup mədəniyyət işçisi və kitabxana əməkdaşları Tovuz döyüşləri şəhidi Nazim İsmayılovun məzarını ziyarət ediblər. Qazax rayon Qazaxbəyli kənd mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən Vətən müharibəsi şəhidi Anar Vəliyevin məzarı başında xatirəsi yad olunub.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Beyləqan rayon I Şahsevən kəndində Vətən müharibəsi şəhidi İmran Məmmədlinin xatirəsinə inşa edilmiş bulağın açılışı olub. Tədbirdə çıxış edən regional idarənin rəisi Faiq Xudanlı qəhrəmanlıq tariximizdən, Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuzun Qələbəsindən, şəhidlərin Vətən uğrunda canlarını fəda etməsindən söz açıb. Xocavənd rayon Mərkəzi Kitabxanasında şəhid general-mayor Polad Həşimovun xatirəsinə həsr olunan dəyirmi masa keçirilib. Füzuli rayon 1 saylı Zobucuq qəsəbəsində fəaliyyət göstərən MKS-də də Polad Həşimova həsr edilən "Şəhidlər ölməz" adlı anım mərasimi təşkil olunub.

## Vətəni canından əziz bilənlər

Masallı Regional Mədəniyyət İdarəsi Cəlilabad rayon Heydər Əliyev Mərkəzi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Haqq savaşının başlandığı gün" adlı tədbir keçirilib.

Bərdə Regional Mədəniyyət İdarəsinin rəisi İlyas Hacıyev Vətən müharibəsi şəhidləri Yaqub Yaqubov, Aqil Quliyev və Şövqi İsmayılzadənin ailələrini ziyarət edib. Görüş zamanı dövlət tərəfindən şəhid ailələrinə göstərilən qayğı, onların sosial rifahının təmin edilməsi məsələlərinin diqqətdə saxlanıldığı vurğulanıb.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər MKS-də Vətən müharibəsinin şəhid giziri Xudayar Yusifzadənin doğum günü ilə əlaqədar "Dastana dönən ömür" adlı videokonfrans keçirilib. Balakən rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsi qaziləri Turan Musayev, Şahmar Baradov və Anar Varşayevlə görüş keçirilib. Balakən rayon Qullar kənd kitabxana filialının müdiri Sanur Yetimova, Poşbinə kənd kitabxana filialının müdiri Vüsalə Novruzova və digər mədəniyyət işçiləri Vətən müharibəsi şəhidi Harun Alqayevin məzarını ziyarət ediblər.



Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi Səxavət Məmmədov və idarənin bir qrup əməkdaşı Qurban bayramı münasibətilə Vətən müharibəsi şəhidi, regional idarənin tabeliyində fəaliyyət göstərən Arif Məmmədov adına Göyçay şəhər Uşaq musiqi məktəbində qarmon müəllimi vəzifəsində çalışmış Alim İbrahimovun ailəsinə baş çəkiblər. Göyçay rayon MKS-nin Uşaq şöbəsinin əməkdaşları Vətən müharibəsinin şəhid polkovnik-leytenantı Vidadi Xəlilovun doğum günü ilə əlaqədar şəhidin ev-muzeyində "Qartal kimi daima zirvələrdə dolaşan Azərbaycanın mərd oğlu" adlı tədbir təşkil ediblər.



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin işçiləri Vətən müharibəsi şəhidi Rauf Vəliyevin doğum günü münasibətilə anım mərasimi keçiriblər.

Biləsuvar Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Salyan rayon mədəniyyət işçiləri Qurban bayramı münasibətilə şəhid ailələrinə baş çəkiblər. Biləsuvar rayon Nəsimi kənd Mədəniyyət evinin əməkdaşları Vətən müharibəsi şəhidi Saleh Məcidzadənin doğum günü münasibətilə ailəsinə baş çəkib, məzarını ziyarət ediblər.

İsmayıllı Regional Mədəniyyət İdarəsi İsmayıllı rayon Fazil Əzimov adına Uşaq incəsənət məktəbinin və rayon MKS-nin əməkdaşları I Qarabağ müharibəsi şəhidi F.Əzimovun, Vətən müharibəsi şəhidləri Famil Əhmədzadə, Həsən Abdullayev və Səməd Hüseynzadənin ailələrini ziyarət ediblər.

Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi, Gəncədəki Nizami Gəncəvi Məqbərə Kompleksinin əməkdaşı olmuş Hikmət Məmmədovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib. Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı Vətən müharibəsi şəhidi Taleh Mustafazadənin xatirəsinə həsr edilmiş "Müqəddəs amal yolunda şəhid olan Taleh" başlıqlı onlayn görüş keçirib. MKS-nin 24 saylı kitabxana filialı isə Vətən müharibəsi şəhidi Təqi Əsgərova həsr olunan "Şərəfli ömür – şəhidlik zirvəsində" başlıqlı onlayn anım mərasimi təşkil edib.

Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə Vətən müharibəsi şəhidi Sabir İsmayılovun və qazi Zahir Məmmədlinin ailələrinə baş çəkərək bayram təbriklərini çatdırıb.

## Müxtəlif səpkili tədbirlər



Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları tərəfindən "52 il əvvəl başlayan uğur hekayəsi" adlı sərgi hazırlanıb, "Əsrimizin dühası – Heydər Əliyev" və "14 iyul: müstəqilliyimizə gedən yolda Heydər Əliyev şəxsiyyəti və siyasi reallıqlar" mövzularında tədbirlər təşkil edilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Rəşad Əliyev şəhərdə fəaliyyət göstərən bir qrup rəssamla görüş keçirib. Sumqayıt Dövlət Rəsm Qalereyasında reallaşan görüşdə Azərbaycan çağdaş təsviri sənətinin inkişafı, rəssamların yaradıcılıq axtarışları, Vətən müharibəsində Zəfərə həsr olunan sərgiyə hazırlıq və s. məsələlər müzakirə edilib. Sumqayıt şəhər Səid Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbinin 2-ci sinif şagirdləri Nigar Mustafayeva və Əli Məmmədli "Amerika nəşri" onlayn beynəlxalq müsabiqəsində fortepiano üzrə 1-ci və 2-ci yerlərə layiq görülüblər.

Sabirabad Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Aşıq Ələsgərin 200 illiyi münasibətilə "Aşıq ədəbiyyatının zirvəsi" adlı onlayn tədbir keçirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ Dövlət Rəsm Qalereyasında "Mənim yay tətilim" başlığı altında sərgi təşkil edilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin 1 saylı kitabxana filialı Xalq artisti, teatr və kino aktrisası Sədayə Mustafayevanın 95 illik yubileyi münasibətilə görüş təşkil edib. Goranboy şəhər Uşaq incəsənət məktəbinin hesabat konserti təqdim olunub.



Şəki Regional Mədəniyyət İdarəsi Balakən rayon Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyevin dövlət idarəçilik irsi" adlı ekskursiya təşkil olunub. Zaqatalanın Eyvaz Əlixanov adına Yengiyan kənd Mədəniyyət evində böyük satirik şair Mirzə Ələkbər Sabirə həsr olunmuş "Mənəvi sərvətimiz" adlı onlayn tədbir keçirilib. Balakən rayon Yeni Şərif kənd Sənətkarlıq evində "Narkomaniyaya yox deyək!" adlı dəyirmi masa keçirilib. S.Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzində görkəmli kristalloqraf alim Xudu Məmmədovun (1927-1988) xatirəsinə həsr olunmuş "Ölümsüz həyat" adlı tədbir təşkil olunub. Qax rayon Əmbərçay kənd kitabxanasında "Saz-söz ustadı Aşıq Ələsgər" adlı tədbir keçirilib.

Lənkəran Regional Mədəniyyət İdarəsi Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" adlı tədbir keçirilib. Astara rayon Heydər Əliyev Mərkəzində "Zəmanəmizin dahi şəxsiyyəti" mövzusunda videokonfrans keçirilib. Astara Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş onlayn rəsm müsabiqəsinə yekun vurulub. Astara rayonunun ümumtəhsil məktəblərini, Astara Dövlət Rəsm Qalereyası, Lənkəran və Qazax rəssamlıq məktəblərini təmsil edən 25 istedadlı gənc rəssamın əl işləri nümayiş etdirilib. Pərvin Qəhrəmanlı (Astara şəhər 1 nömrəli orta məktəb) I, Aysun Cümşüdova (Sərək kənd orta məktəbi) II, Nəzrin Qəhrəmanlı (Astara şəhər 1 nömrəli orta məktəb) III yerləri tutublar.



Ağstafa Regional Mədəniyyət İdarəsi Tovuz Dövlət Rəsm Qalereyası tərəfindən Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş gənc rəssamların əl işlərindən ibarət "Maraqlı dünyamız" adlı rəsm sərgisi təşkil olunub.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə həyata keçirilən "Kəndlərdə mədəniyyət günləri" layihəsinin növbəti ünvanı Siyəzən rayonunun Sədan kəndi olub. Tədbirdə kəndin adət-ənənəsi, sənətkarlıq, mətbəx nümunələri, hərbi-vətənpərvərlik mövzulu, eləcə də Nizami Gəncəvi və Aşıq Ələsgərlə bağlı nəşrlərdən ibarət kitab sərgisi nümayiş olunub.

Hazırladı: N.MƏMMƏDLİ

# “Mədəniyyətimiz–tariximiz” layihəsində Haqverdiyev xatırlanıb

Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) “Mədəniyyətimiz-tariximiz” layihəsi çərçivəsində görkəmli yazıçı-dramaturq, publisist, teatr xadimi, pedaqoq Əbdürrəhim bəy Haqverdiyevə (1870-1933) həsr olunmuş tədbir keçirilib.



Tədbiri giriş sözü ilə ittifaqın sədr müavini, Xalq artisti Hacı İsmayılov açaraq Əbdürrəhim bəy Haqverdiyevin ömür yolu və milli mədəniyyətimizə bəxş etdiyi dəyərli sənət inciləri barədə danışıb.

Bildirib ki, dövlət başçısı 2020-ci ildə Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyinin qeyd olunması ilə bağlı sərəncam imzalayıb. Təəssüf ki, mövcud pandemiya şəraitində teatrlarımız böyük ədibin yubileyini layiq olduğu səviyyədə keçirə bilmədi. “Ötən il Haqverdiyevin əsərlərinə yenidən səhnə həyatı verilməsi imkanı olmasa da, onun yaradıcılığı bütün zamanlarda öz aktuallığını qoruyub saxlaya bilib və öz yüksək qiymətini alıb. Əbdürrəhim bəyin adı UNESCO-nun 2020-2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilib. Bu, onun yaradıcılığına verilən yüksək qiymətin aydın təzahürüdür”, – deyə Hacı İsmayılov qeyd edib.

Tədbirdə Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Allahverdi Məmmədli Ə.Haqverdiyevin yaradıcılığını ətraflı təhlil edib, Əməkdar artist, rejissor Nicat Kazımov yazıçının əsərlərinin teatr sənətimizin inkişafındakı rolundan və quruluş verdiyi “Pəri cadu” tamaşasından danışıb.

Tədbirdə Haqverdiyevin əsərlərinin səhnə taleyi ilə bağlı foto və videogörüntülər nümayiş olunub.

Əbdürrəhim bəy Haqverdiyev Mərkəzinin rəhbəri, ədibin nəticəsi Eldar Məlik Abbas tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

# Kino və teatr xadimi Zemfira Babayeva dünyasını dəyişib

Əməkdar mədəniyyət işçisi, kino və teatr xadimi Zemfira Babayeva uzun sürən xəstəlikdən sonra, iyulun 20-də, 67 yaşında dünyasını dəyişib.



Zemfira Baba qızı Babayeva 1954-cü il noyabrın 17-də Bakıda anadan olub. C.Cabbarlı adına “Azərbaycanfilm” Kinostudiyasında müxtəlif vəzifələrdə çalışıb. Sonralar fəaliyyətini Azərbaycan Kinematoqrafçılar İttifaqında davam etdirib. Kino sahəsində bir çox layihələrdə yaxından iştirak edib. Fransada Azərbaycan Kinosu Günləri (2001-ci il), Bakıda İsveçrə Kinosu Günləri (2003), Beynəlxalq Uşaq Filmləri Festivalı (2007), “Fokus” kino jurnalının nəşri, UNESCO-nun sifarişi ilə “İlahi səda” sənədli filmi (2011), Mədəniyyət Nazirliyinin sifarişi ilə “Şəbəkə” qısametrajlı filmi belə layihələrdəndir.

Zemfira Babayeva 2013-cü ildən Bakı Bələdiyyə Teatrının truppa müdiri vəzifəsində çalışıb və teatrın son illərdə qazandığı uğurlarda onun da zəhməti olub.

# Peşəmə xəyanət etməməliyəm

## Xalq artisti Məmməd Səfa: “Bu sənətə gəlməyi qarşıma məqsəd qoymamışam, sadəcə, həyat elə şərait yaradıb ki, gəlib bu sahədə dayanmışam”



Sənət özü əsl sahiblərini seçir, səmtləndirir, ucaldır, sevdirir. Seçilənlər isə sənətin kələ-kötür, çətin yollarını bilik və bacarıqları, istedad və zəhmətləri ilə aydınladır, uğur qazanırlar. Çoxşaxəli yaradıcılığında özünəməxsus dəst-xəttinə görə seçilən, peşəkar təqdimatı ilə sənətsevərlərin sevimlisinə çevrilən teatr, kino aktyoru, Xalq artisti Məmməd Səfa Qasımov da tanınan, sevilən isimlərdəndir. Tanınmış aktyorumuzun ömür payının 61-ci yayını qeyd etməsi (25 iyul) ərəfəsində həyat və sənət düşüncələrini dinlədik.

*– Məmməd Səfa müəllim, sizə cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.*

– Təşəkkür edirəm.

*– Yəqin doğum gününüzü dostlarla, doğmalarla qeyd edəcəksiniz...*

– Doğum gününü qeyd etməyi sevmirəm, qeyd etmirəm də.

*– Onda gəlin, adınızın mənasından başlayaq. Niyə məhz Məmməd Səfa?*

– Çünki adım Məmməd Səfadır. Bir dəfə atam məndən kinayə ilə soruşdu ki, bala sənin soyadın yoxdu? Dedim var. Dedi görmürəm axı, həmişə yazırlar Məmməd Səfa. Heç Qasımov yazan yoxdu. Dedim, ay kişi, Allah sənə kömək olsun, mənə bu boyda ad vermisən, Məmməd Səfa, yanında Qasımov da yazılanda uzun ad olur. Buna görə sənət həyatımda adım Məmməd Səfa gedir.

*– Sənət neçə yaşınızdan sizi ovsunladı?*

– Sənəti mənə ədəbiyyat müəllimlərim sevdirib. Ədəbiyyat mənim teatra gəlməyimə səbəb olub. Uşaq vaxtından həmişə ədəbiyyata, teatra, kinoya sevgim olub. Amma heç bir dərnəyə getməmişəm. Bu sənətə gəlməyi də qarşıma məqsəd qoymamışam. Sadəcə olaraq, həyat elə şərait yaradıb, elə istiqamətlərə yönəldib ki, gəlib bu sahədə dayanmışam.

*– Sənətin sirlərini Bakı Mədəni-Maarif Texnikumunda Əfrasiyab Məmmədovdan, Mədəniyyət və İncəsənət Universitetinin Tədris teatrında isə Vaqif İbrahimoğlundan almısınız. Daha kimləri sənət mayakı hesab edirsiniz?*

– İlk sənət müəllimim Əfrasiyab Məmmədov olub. Sonra universitetdə təhsil alarkən sənət müəllimlərim Fuad Hacıyev, Zəminə Hacıyeva, Faiq Zöhrabov, Nəsir Sadıqzadə olub. Ən sonda əsas mayakımız, sənət istiqaməti verənimiz isə Vaqif İbrahimoğlu olub. Vaqif İbrahimoğlu bizi elə doğru yola yönləndirib ki, mən o yoldan heç vaxt çıxa bilmərəm. Bu yol böyüyə, kiçiyə, ailəyə, peşəyə, tərəf-müqabillərinə, xalqına, millətinə sevgi yoludur. Bu kimi vacib amillər insanın varlığına mütləq təsir edir. Bu hisslərin aliliyini bu və ya digər formada yaradıcılığımız vasitəsilə tamaşaçıya çatdırırıq.

*– Məmməd Səfanı kinoda Tofiq Tağızadənin kəşfi adlandıra bilərik?*

– Məni ilk dəfə kinoya gətirən görkəmli kinorejissor Tofiq Tağızadə olub. Məni ona istiqamətləndirənlər isə kino rəssamı, aktyor, kinorejissor Şamil Nəcəfzadə və kinooperator Rafiq Quliyev olub. Tofiq müəllim onlara görə məni tanıyıb.

*– Kamera qarşısında ilk dəfə psixoloji rol oynamaq çətin olmadı?*

– İlk dəfə kinoda (“Köpək” filmi, 1994 – red.) baş rolda, üstəlik heç bir kino təəssüratı, ekran təcrübəsi olmayan, adi çəkiliş planlarını bilməyən aktyor üçün psixoloji rolda oynamaq olduqca çətin idi. Amma çəkiliş zamanı Tofiq müəllim, filmin operatoru Rafiq müəllim, tərəf-müqabillərim, kinoda böyük təcrübələri olan Xalq artistləri Fuad Poladov, Yaşar Nuri, Nuriyyə Əhmədova, Əməkdar artist Muxtar İbadov mənə çox kömək etdilər. Mənim üçünsə bu film səmərəli bir təcrübə oldu.

> “İstədiyim rolları oynamamışam. Vətən müharibəsində canlarından keçən şəhidlərimizin, şücaətlər göstərən qazilərimizin hər birinin döyüş yolu bir filmin mövzusudur. Bu mövzuda qələbə filmlərimiz çəkiləcək və həmin filmlərdə çalışmaq üçün bizi daha çox işlər gözləyir”.

*– İlk film sizə nəyi öyrətdi?*

– Kamera və tərəf-müqabilləri ilə davranışı, münasibəti öyrətdi. Böyük bir kollektivlə iş prosesində olan nizam-intizamı bir daha göstərdi. Ümumiyyətlə, nizam-intizam olmayan yerdə nəticə əldə etmək çətindir.

*– Bu roldan sonra ardıcıl olaraq psixoloji dramlara dəvət aldınız. Bu, sizi yormadı?*

– Qətiyyən. Məsələn, “Cavid ömrü” filmi mürəkkəb bir filmdi. Aktyor ifası baxımından da mürəkkəbdi. Burda aktyorun qarşısına qoyulan tələblər həm müxtəlifdir, fərqlidir, həm də çətindir. İblisin doqquz görünməyən tərəfi xarakterizə edilir. Hesab edirəm ki, həmin filmdəki obrazlar hər biri ayrı-ayrılıqda bədii filmin böyük bir obrazıdır.



*– “Ovsunçu”, “Günaydın, mələyim”, “Sahə”, “Tərsinə çevrilən dünya” və digər filmlərdə mənfi obrazlar yaratmısınız. Daha çox mənfi rollara təklif almağı nə ilə əlaqələndirərdiniz?*

– “Ovsunçu” filmi Azərbaycan kino tarixində mövqeyi olan bir filmdir. Filmdəki hadisələr Azərbaycan tarixində yaddaqalan səhifələrdəndir. Sovet hökumətinin ölkəmizdə, kəndlərdə törətdiyi çaxnaşmalar, qarşıdurmalar xoşagəlməz və unudulmaz hadisələrdir. Təəssüf ki, orta məktəbdə oxuduğumuz müddətdə bu tarix bizə yanlış istiqamətdə öyrədilib. Amma tarix tarixliyində, fakt faktlığında qalır. Tarixi faktları kinoda işıqlandırmaq mütləqdir. “Ovsunçu” filmi də bu mənada tarixə bir nəzər salıb. Əlavə edim ki, məndən ötrü yaradıcılıqda mənfi-müsbət anlayışı yoxdur, önəmli olan hər hansı bir dövrün personajını inandırıcı təqdim etməkdir.

*– Ekran obrazlarınızın bənzərsizliyi üçün lazım olan ştrixləri necə tapırsınız?*

– Aktyor peşəsində müşahidə qabiliyyəti var. Biz həmişə axtarışda oluruq. Aktyor mütəmadi olaraq müşahidə etməlidir. Müşahidələri də işinə şamil etməyi bacarmalıdır. Sənətimizin xüsusiyyəti budur. Obrazın uğuru da müşahidələrin nəticəsidir.

*– Qəliz xarakterli rollarınızdan biri də “Tərsinə çevrilən dünya” filmindəki Kazemi obrazıdır. Yaradıcılığınızdakı bu fərqli rolun psixoloji durumunu tanıtma üslubundan bəhs edərdiniz...*

– Bu rol mənim üçün yeni bir obraz idi. Filmin operatoru Kənan (Məmmədov – red.) müəllimin rolu dərk etməyimdə, işləməyimdə mənə köməyi çox oldu. Onun gözüdür kamera qarşısında ilk dəfə məni görən. “Ovsunçu” və “Tərsinə çevrilən dünya” filmlərində ona çox etibar etmişəm. Elə onlar da mənə etibar ediblər.

*– Rollarınızdan narazı qaldığınız məqamlar olubmu?*

– Mən istədiyim rolları oynamamışam. Amma hiss edirəm ki, görəcəyimiz işlər hələ qarşıdadır. Şükürlər olsun ki, 44 günlük haqq savaşımızda xalqımız qalib oldu. Vətən müharibəsində canlarından keçən şəhidlərimizin, şücaətlər göstərən qazilərimizin hər birinin döyüş yolu ayrı-ayrılıqda bir bədii filmin mövzusudur. Bu mövzuda qələbə filmlərimiz çəkiləcək və həmin filmlərdə çalışmaq üçün bizi daha çox işlər gözləyir.

*– İmtina etdiyiniz rollar olubmu?*

– Bir neçə kino obrazından müəyyən səbəblərdən imtina etmişəm. Ancaq bu o demək deyil ki, mən həmin rolu oynaya bilməzdim, sadəcə, mənlik deyildi.

*– Hansı kinorejissorlarla həvəslə, zövqlə çalışmısınız?*

> “Kino böyük əziyyətin nəticəsidir. Bu əziyyəti kənardan çox müşahidə etmişəm və öz-özümə sual da vermişəm ki, sən kino çəkə bilərsənmi? Sonra da fikirləşmişəm ki, yox, bu başqa peşədir. Hərə öz işi ilə məşğul olmalıdır”.

– Tofiq Tağızadə, Oqtay Mir-Qasım, Ramiz Həsənoğlu ilə çox rahat işləmişəm. Azərbaycan televiziya və kino sənətində aktyor məktəbinin yetişməsində Ramiz müəllimin böyük rolu var. Bu mənada mən özümü Ramiz müəllimə borclu hesab edirəm və özümü onun tələbəsi bilirəm.

*– Tamaşaçılarla ünsiyyətdə olursunuzmu və yaradıcılığınıza kənardan baxa bilirsinizmi?*

– Oluram. Qəribədir ki, tamaşaçılar keçmiş kino tariximizə daha çox etibar edirlər, nəinki indiki. Soruşurlar niyə o filmlər yoxdu, çəkilmir. Amma öz fikrimdə qalıram ki, bu gün bizim güclü aktyor potensialımız, istedadlı tələbələrimiz var.

*– Kinoda rolları səsləndirməyə də aktyor fəaliyyətinizlə bir vaxtda başladınız. Bu da xüsusi yanaşma, bacarıq tələb edir. Dublyaj sənətinə yaradıcılığınızın bir hissəsi kimi baxırsınız, yoxsa necə?*

– Mikrofonla iş aktyorun tərbiyəsində, böyüməsində böyük əhəmiyyətə malikdir. Aktyor yaradıcılığında səslə işləmək, filmdəki ab-havanı dəqiqliklə çatdırmaq başqa bir səriştə, vərdiş tələb edir. Bunlar vacib vərdişlərdir. Çünki filmdə çəkiləndə obrazın səsini də səsləndirməlisən. Vərdiş olmalıdır ki, səsi yaza biləsən. Yadıma gəlir, Tofiq müəllim “Köpək” filmində mənə etibar etmək istəmirdi ki, öz səsimi özüm yazım. Getdim yanına və soruşdum ki, niyə icazə vermirsiniz öz səsimi özüm yazım? Dedi, sən yaza bilməzsən. Bu başqa bir vərdişlər tələb edir, o, səndə yoxdu. Dedim siz səsimi yoxlayın, sonra qərara gəlin ki, olar, yoxsa yox. Yoxladı və dedi ki, düz deyirsən, yaza bilərsən. Beləliklə, öz səsimi özüm yazdım. Səslə görüntünü, təsviri yarada bilmək də bir vərdişdir. Bunun üçün mətn üzərində mütəmadi olaraq işləmək lazımdır. Fərdi şəkildə öz üzərində işləməlisən.

*– Oynadığınız rolu başqa bir aktyor səsləndirsə, bu sizi qıcıqlandırmaz?*

– Kimsə rolumu xarici dildə səsləndirsə qıcıqlandırmaz. Azərbaycan dilində səsləndirsə, işimi yarımçıq hesab edərəm.

*– Şəcərənizdə sizdən əvvəl incəsənətdə kimlər olub və sizdən başqa kimlər olacaq?*

– Heç kim olmayıb, heç kim də bu peşədə deyil. Qızım tarixçidir. Oğlum orta məktəbin on birinci sinif şagirdidir. Kompüter elmləri ilə məşğul olmaq istəyir. Gəlib desə ki, olarmı bu sənətlə məşğul olum, deyərəm yox. Yoldaşım isə evdar xanımdır.

*– Nə vaxtsa film çəkmək istəmisinizmi?*

– Kino böyük əziyyətin nəticəsidir. Maliyyədən başqa güc, sağlamlıq tələb edir. Burda böyük bir kollektiv işləyir. Bu əziyyəti kənardan çox müşahidə etmişəm və öz-özümə sual da vermişəm ki, sən kino çəkə bilərsənmi? Sonra da fikirləşmişəm ki, yox, bu başqa peşədir. Hərə öz işi ilə məşğul olmalıdır. Görkəmli kino sənətkarlarımız tərəfindən peşəkar kino ənənələri qoyulub. Onlar kino tariximizi yaradıblar. Bizim kino mədəniyyətimiz, kino tariximiz var. Onların miras qoyub getdiyi sənətə xəyanət etməyə ixtiyarımız yoxdur. Bacarırsansa, nəsə et, bacarmırsansa, o şəbəkəni dağıtma.

*– Məmməd Səfa kinoda qəddardır, həyatda necə?*

– Həyatda da, ailədə də çox mülayim insanam. Xasiyyətim mülayimdir.

*– Kino Məmməd Səfa müəllimə nə verdi?*

– İnsanların, sənətsevərlərin sevgisini, rəğbətini verdi. Kino mürəkkəb bir sahə, aktyorluq isə məsuliyyətli peşədir. Qarşılıq olaraq vacibi odur ki, peşəmə xəyanət etməməliyəm, axıra qədər onu sevməliyəm.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

# “Amaliya obrazı karyeramda işıq oldu...”

İctimai Televiziya iyun ayında görkəmli teatr və kino xadimi, Dövlət mükafatı laureatı, “Şərəf” və “Şöhrət” ordenli sənətkar, Xalq artisti Amaliya Pənahovanın (1945–2018) xatirəsinə həsr olunan “Onun qəribə taleyi. Amaliya Pənahova” adlı bədii-sənədli filmi təqdim etdi. Unudulmaz aktrisanın həyat və sənət yoluna işıq salan film tamaşaçılar tərəfindən maraqla qarşılandı.

Amaliya Pənahovanın əziz xatirəsi onu sevən milyonlarla pərəstişkarının, sənət dostları və doğmalarının qəlbində əbədi yaşayır. Teatr və kino salnaməmizin inkişafına dəyərli töhfələr verən aktrisa hər zaman gənc nəsil aktyorlar üçün nümunə olub. Bu filmdə də sənətkarın obrazı Dövlət Gənc Tamaşaçılar Teatrının gənc və istedadlı aktrisası Aygun Fətullayevaya həvalə edilib.

Aktrisa deyir ki, Amaliya Pənahovanın yaradıcılıq taleyindən bəhs edən filmdə çəkilmək onun üçün əlamətdar hadisə və karyerasında mühüm bir mərhələ olub: “Ssenari müəllifi Vidadi Hüseynov, quruluşçu rejissor Ruslan Hüseyn və prodüser Əziz Əliyevdən filmdə çəkilməyim üçün təklif gəldi. Layihəni müzakirə etdik və dəvəti məmnuniyyətlə qəbul etdim. Əlbəttə ki, görkəmli aktrisanın obrazını ekranda təcəssüm etdirmək mənim üçün böyük şərəfdir. Onun sənəti bu gün gənc aktyorlar üçün bir örnəkdir. O, bir çox aktyorun taleyində böyük rol oynayıb, mənim yaradıcılığımda isə bir işıq oldu. Ssenarini oxuduğum ilk gündən





həyəcan, qürur və eyni zamanda dərin məsuliyyət hissi məni tərk etmirdi. Filmdə öz işimə elə yanaşmalı idim ki, Amaliya xanımın xatirəsinə və yaradıcı irsinə layiq olsun. Film üzərində böyük bir komanda çalışırdı və onların da hər biri işinə diqqət və məsuliyyət hissi, böyük sevgi, dərin məhəbbətlə yanaşırdı”.

Aktrisa həmçinin söhbət zamanı vurğulayır ki, hələ məktəb illərindən onu görkəminə görə Amaliya Pənahovaya oxşadırdılar: “Daha sonra tələbəlik illərində səs tonlarımızın da oxşarlığını qeyd edirdilər. Heç vaxt ağlıma gəlməzdi ki, nə vaxtsa kinoda onun obrazını yaradaram. Teatr yaradıcılığımda isə onun “Nişanlı qız” tamaşasındakı obrazını – Zərifəni oynamışam. Bu da taleyin bir işarəsidir yəqin ki... Təəssüf ki, mən onun tələbəsi olmamışam. Amma universitetdə tez-tez görərdim, ustad dərslərində iştirak etmişəm. Bu səbəbdən də özümü xoşbəxt aktrisa hesab edə bilərəm. Bu gün Amaliya xanımın doğmalarından filmdə onun obrazını məharətlə yaratmağımla bağlı xoş sözlər eşitmək mənim üçün hədsiz xoşdur”.

Aygün Fətullayeva 1992-ci ildə Quba şəhərində anadan olub. 2013-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Estrada aktyorluğu fakültəsini bitirib. 2016-cı ildən Gənc Tamaşaçılar Teatrının aktrisasıdır. Teatrın səhnəsində Rəqqasə (“Aydın”, C.Cabbarlı), Şagird (“Mənim ağ göyərçinim”, T.Vəliyeva), Annika (“Uzuncorab Pippi”, A.Lindqren), Gerda (“Qar kraliçası”, H.K.Andersen) – ümumilikdə 20-dən artıq tamaşada maraqlı obrazlar yaradıb.

**Lalə AZƏRİ**

# “Oğlum Öməri məktəbə yollaya bilməyəcəyəm...”

44 günlük İkinci Qarabağ müharibəsi gənclərimizin qəhrəmanlıq sınağı oldu və Vətən oğulları bu imtahandan şan-şərəflə çıxdılar. Vətəni canından əziz bilən, ana yurdun azadlığı uğrunda ölümün üzərinə mərdanə gedən igidlərimizdən şəhid gizir Naiq Ələkbərov haqqında söz açacağıq.



Naiq Faiq oğlu Ələkbərov 1994-cü il avqustun 8-də Şamaxı rayonunun Bağırlı kəndində anadan olub. 2000-2011-ci illərdə F.Şıxəliyev adına Bağırlı kənd tam orta məktəbində, 2012-2014-cü illərdə isə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində feldşerlik üzrə təhsil alıb. 2014-2015-ci illərdə gizir hərbi rütbəsində Azərbaycan Silahlı Qüvvələrinin N saylı hərbi hissəsində feldşer kimi xidmət edib. 2015-ci ildən etibarən müvafiq kurslardan keçərək Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) cərgələrinə qoşulub. 2016-cı ilin Aprel döyüşləri zamanı Talış yüksəkliyi istiqamətində gedən döyüşlərdə kəşfiyyatçı kimi iştirak edib.

Xidməti dövründə göstərdiyi yüksək peşəkarlığa görə Azərbaycan Ordusunun 95 və 100 illik yubiley medalları ilə təltif olunub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində hünər meydanına atılan Naiq Füzuli, Xocavənd və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak edir. Oktyabrın 9-da Cəbrayıl rayonu ərazisində şəhidlik zirvəsinə ucalır.

Döyüşçü yoldaşlarının sözlərinə görə, Naiq son nəfəsində “Oğlum Öməri məktəbə yollaya bilməyəcəyəm, şəhid oluram...” deyərək gözlərini əbədi olaraq yumub.

Şəhidin atası Faiq Ələkbərov qeyd edir ki, oktyabrın 10-u səhər saatlarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı rayon şöbəsindən onlarla əlaqə saxlayıblar: “Söylədilər ki, oğlunuz yaralıdır, şöbəyə yaxınlaşarsınız. Həmin dəqiqə hiss etdim ki, Naiq şəhid olub. Hazırda digər oğlum Nahid də ön cəbhədə Vətənə xidmət edir. Mən oğullarımla fəxr edirəm. Naiq Vətən uğrunda şəhadətə qovuşdu. Ümid edirəm ki, övladı da böyüyəndə onun kimi igid, vətənpərvər olacaq”.

2013-cü ildə ailə həyatı quran Naiqin Ömər, Zəminə və Çiçək adlı üç övladı yadigar qalıb.

Naiq Ələkbərov oktyabrın 10-da Şamaxı Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Şəhidin həyat yoldaşı Əfsanə Ələkbərova söyləyir ki, Naiqdən 10 gün əvvəl öz qardaşı İlkin Zülfüqarov da Vətən yolunda şəhidlik zirvəsinə ucalıb: “Qardaşım evin tək oğlu idi. Vətən müharibəsi başlayan zaman Xüsusi Təyinatlı Qüvvələrin giziri kimi cəbhədə idi. Müharibənin ilk günlərində bir neçə döyüşdə iştirak edib. Sentyabrın 30-da Cəbrayıl rayonunun azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub”.

Qeyd edək ki, İlkin Zülfüqarov oktyabrın 1-də Ağsu rayon Şəhidlər xiyabanında dəfn olunub. Ölkə başçısının sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

Naiq, İlkin kimi qəhrəmanlar Vətən yolunda canlarını qurban verdilər. Torpaq uğrunda ölən varsa, Vətən var, deyiblər. İllər ötsə də, xalqımız belə qəhrəmanlarımızı heç vaxt unutmayacaq, əziz xatirələrini uca tutacaq.

Ruhları şad olsun.

**NURƏDDİN**

# Tanınmış jurnalist Tahir Abbaslı vəfat edib

Mahir publisist, tanınmış jurnalist və yazıçı, uzun illər “Mədəniyyət” qəzetində fəaliyyət göstərmiş Tahir Abbaslı 18 iyul 2021-ci ildə, 73 yaşında vəfat edib.

Tahir Heydər oğlu Abbaslı (Tahir Əhmədalılar) 1948-ci il sentyabrın 25-də Ağdam rayonunun Novruzlu kəndində anadan olub. 1953-cü ildə Novruzlu kənd orta məktəbinin birinci sinfinə gedib. 1958-ci ildə ailəsi Füzuli rayonunun Əhmədalılar kəndinə köçüb və o, 1965-ci ildə həmin kənddə orta məktəbi bitirib. Bir müddət müxtəlif işlərdə çalışdıqdan sonra orta məktəbdən arzusunda olduğu jurnalistika, mətbuat yolunda ilk addımlarını atmağa başlayıb. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsinə daxil olub. Tələbə ikən, 1971–1972-ci illərdə “Bakı” və “Baku” axşam qəzetlərində korrektor işləyib. 1974-cü ildə təhsilini başa vurduqdan sonra ordu sıralarında xidmət edib.



Tahir Abbaslı 1977–1994-cü illərdə Azərbaycan Teleradio Verilişləri Komitəsində redaktor, böyük redaktor, şöbə müdiri və studiya direktoru vəzifələrində çalışıb. O, 1994–2004-cü illərdə müxtəlif qəzetlərdə müxbir, şöbə müdiri və baş redaktor kimi fəaliyyət göstərib.

İstedadlı publisist 2004-cü ildən taleyini “Mədəniyyət” qəzeti redaksiyası ilə bağlayıb. Müxtəlif illərdə müxbir, incəsənət, mədəniyyət siyasəti, elm və təhsil şöbələrinin müdiri, eləcə də redaktor vəzifələrində çalışıb. 2016-cı ildə yaşla əlaqədar təqaüdə çıxsa da, redaksiya ilə əlaqəsini kəsməyib, diqqətçəkən yazıları qəzetdə mütəmadi dərc olunub. “Tahir Abbaslı”, eləcə də “Tahir Əhmədalılar” imzalı yazıları intizarla gözləyən çoxsaylı oxucuları vardı. Azərbaycan Mətbuat Şurası və digər və yaradıcılıq təşkilatlarının keçirdiyi müsabiqələrdə dəfələrlə uğur qazanmışdı.

Tahir Abbaslı həm də maraqlı hekayə və esselərin müəllifi idi.

Tanınmış qələm sahibi, ustad jurnalist, səmimi insan Tahir Abbaslının əziz xatirəsi “Mədəniyyət” qəzeti kollektivinin və çoxsaylı oxucularının qəlbində daim yaşayacaq. Mərhumun ailəsinə, yaxınlarına və oxucularına dərin hüznlə başsağlığı veririk.

***

Tahir Abbaslı iyulun 18-də Füzuli rayonunun Əhmədalılar kəndində torpağa tapşırılıb. Allah rəhmət eləsin.

# Sənətdə izi, könüllərdə yeri olan sənətkar

O, İrəvan Azərbaycan Dram Teatrı və Naxçıvan səhnəsində çoxsaylı pyeslərə uğurlu səhnə həlli verən rejissor kimi yadda qalıb. Quruluş verdiyi tamaşalarda həssaslıq tələb edən məqamları böyük ustalıqla təqdim etməyi bacarıb. Əməkdar incəsənət xadimi Baxşı Qələndərlinin sənət yoluna nəzər salırıq...

Baxşı (əsl adı: Baxış) Həsən oğlu Qələndərli 20 iyul 1903-cü ildə Xankəndi şəhərində dünyaya göz açıb. İbtidai məktəbi bitirdikdən sonra Bakıya gəlir və burada orta təhsilini başa vurur. Teatra olan həvəsi 1926-cı ildə onu Bakı Teatr Texnikumuna gətirir. Təhsilini 1930-cu ildə müvəffəqiyyətlə bitirir. O, sevdiyi sənət sahəsində ali təhsil almaq istəyirdi. Ona görə də Leninqrad (indiki Sankt-Peterburq) Səhnə Sənəti İnstitutunda təhsilini davam etdirir. 1934-cü ildə təhsilini bitirib İrəvan şəhərinə gedir. Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrında baş rejissor işinə götürülür. İlk gündən işinə məsuliyyətlə yanaşan Baxşı Qələndərli burada bir-birindən maraqlı tamaşalar səhnələşdirir, püxtələşir.

1944-cü ildə İrəvanda Vilyam Şekspirin 380 illiyinə həsr edilən VI Ümumittifaq elmi-tədqiqat konfransı və Şekspir tamaşalarının festivalında onun hazırladığı “Otello” tamaşası birinci yerə layiq görülür. Araşdırmalarda göstərilir ki, münsiflər heyətinin üzvü, professor Mixail Morozov pyesin Azərbaycan dilində mətninin üzərində bu sözləri yazıb: “Mən Şekspir festivalında əsl ləzzəti azərbaycanlıların “Otello” tamaşasından aldım”. Naxçıvan teatrının keçmiş aktyoru, Əməkdar artist Yusif Allahverdiyev Baxşı Qələndərlinin bu barədə söhbətini belə xatırlayır: “Baxşı müəllim deyirdi ki, Morozov hamıya bildirmişdi ki, o, Otellonun Dezdemonanı boğması səhnəsinə baxa bilmir. Hətta bunu Şekspir tərəfindən istifadə olunan vəhşilik kimi dəyərləndirirdi. Çünki tamaşaçının gözü qarşısında insanı boğmaq və öldürmək düzgün deyil. Amma Baxşı müəllim çox orijinal bir üsul tapmışdı. O, sonuncu səhnədə, ölüm yerində baş tərəfi taxta ilə qapalı və ayaq hissəsi tamaşaçıya sarı olan bir çarpayı qoymuşdu. Yəni tamaşaçı yatağında uzanan Dezdemonanı görmürdü. Otello onun yatağına yaxınlaşır və Dezdemonanı boğurdu. Otello ayağa qalxandan sonra isə çarpayıdan heysiz bir qadın əli yana düşürdü. Bu mizan ilk dəfə olaraq belə işləndiyi üçün dəhşətli ölüm səhnəsi birbaşa tamaşaçının gözü qarşısında baş vermirdi. Ona görə də bütün münsiflər heyəti tamaşanı ayaq üstə alqışladılar”.



İrəvanda Azərbaycan teatrının nüfuzunun artmasından narahat olan ermənilər ənənəvi məkrli planlarını həyata keçirməyə başlayırlar. Bu, azərbaycanlı əhalinin indiki Ermənistan ərazisindəki əzəli yurd yerlərindən kütləvi deportasiyasına başlanıldığı 1948-ci ilə təsadüf edirdi. Beləliklə, 1949-cu ildə Azərbaycan teatrı da İrəvandan Göyçə mahalının Basarkeçər rayonuna köçürülür. Qısa müddət sonra isə teatrın fəaliyyəti dayandırılır və onun bazasında xalq teatrı təşkil olunur.

Baxşı Qələndərli 1964-cü ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrına rejissor dəvət edilir. Qısa vaxt ərzində kollektivə uyğunlaşır. Burada maraqlı tamaşalarla teatrsevərlərin görüşünə gəlir. “Müsyö Jordan və dərviş Məstəli şah” (M.F.Axundzadə), “Od gəlini” (C.Cabbarlı), “Mehmanxana sahibəsi” (K.Qoldoni), “Cehizsiz qız” (A.Ostrovski), “Dördüncü” (K.Simonov), “Səadət nəğməsi” (Ə.Yusifli), “Qəmli günlər” (N.Əliyev) və s. tamaşalar onun yaradıcı təxəyyülünün səhnə məhsuluna çevrilir. Rejissor mizanları tamaşaçılar tərəfindən maraqla qarşılanır.

Onun şair-dramaturq Kəmalənin “Məhsəti” pyesi əsasında hazırladığı eyniadlı tamaşa Məhsəti Gəncəviyə həsr edilən ilk səhnə əsəri kimi sənət tariximizə yazılır. Görkəmli teatrşünas Cəfər Cəfərov bu tamaşa haqda mətbuatda dərc etdirdiyi resenziyasında yazır: “Təcrübəli rejissor olan Baxşı Qələndərli tarixi hadisələri təsvir etmək üçün xırda detallardan, bərli-bəzəkli geyimlərdən və parlaq əşyalardan imtina edib. Tamaşa yığcam, cəlbedici rejissor dəstxəttinin sadəliyi ilə diqqəti çəkir. Burda tərki-dünyalıq və nikbinlik kimi iki dünyagörüşün, fəlsəfi baxışın arasında gedən mübarizə xərabat və məscidlə aydın şəkildə təzahür edir”.

Mənbələrdə qeyd olunur ki, rejissorun həmin vaxt Naxçıvan teatrının baş rəssamı olan Məmməd Qasımovla (1925-1987) birgə yaradıcılıq əməkdaşlığı həmişə uğurlu alınıb. Onların arasında yaş fərqi çox olsa da, sənət zövqləri bir-birini tamamlayıb.

Bir müddət Naxçıvan teatrında baş rejissor da işləyən Baxşı Qələndərlinin artistlərə maraqlı yanaşması olub. O, məşq zamanı onlara irad bildirməz, məşqlərdən sonra aktyora yaxınlaşar və astadan öz irad və qeydlərini deyərmiş. Nəticədə aktyor öz nöqsanını səmimi şəkildə başa düşərdi. Teatrşünaslar onun Naxçıvan teatrında rejissor kimi işlədiyi vaxtda bütöv bir aktyor nəslinin yetişməsində rolunu xüsusi qeyd edirlər. Baxşı Qələndərlinin C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında çəkdiyi zəhmət yüksək qiymətləndirilir. 1974-cü ildə ona “Əməkdar incəsənət xadimi” fəxri adı verilir.

İrəvan Azərbaycan teatrında və Naxçıvan səhnəsində silinməz iz qoyan Baxşı Qələndərli 14 sentyabr 1985-ci ildə, 82 yaşında vəfat edib və İrəvan şəhərində dəfn olunub.

**Savalan FƏRƏCOV**

# Respublika Uşaq Kitabxanasının yeni metodik vəsaitləri

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Xalq şairi Qabilin (1926–2007) və tanınmış yazıçı Süleyman Vəliyevin (1916–1996) yubileyləri münasibətilə metodik vəsaitlər təqdim edib.

Qabil İmamverdiyevin 95 illiyi münasibətilə tərtib edilən “Qibləgahı həqiqət olan şair” adlı vəsait şəhər-rayon mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün nəzərdə tutulub.

Vəsaitin I hissəsi şairin həyat və yaradıcılığından bəhs edir. “Qətiyyətli qələmilə əbədiyyət qazanan şair” adlı II hissə isə Qabilin yaradıcılığı mövzusunda kitabxanalarda pandemiya ilə əlaqədar onlayn şəkildə təşkil olunan tədbirlərin ssenarisindən bəhs edir. Vəsaitdə şairin uşaqlar üçün qələmə aldığı “Sözün qısası” başlığı altında silsilə şeirləri (“Deyil”, “Söz”, “İynə-sancaq”, “Qar yağır”, “Deməli”, “İnsan”, “Ehtiyac”, “Nağaraçı”) haqqında da oxuculara məlumat verilib.

“Faciəli ömrün qəmli dastanını yazan ədib” adlı metodik vəsait Süleyman Vəliyevin 105 illiyi münasibətilə hazırlanıb. Süleyman Vəliyevin yaradıcılığında II Dünya müharibəsi, o cümlədən azərbaycanlı döyüşçülərin Avropada antifaşist Müqavimət hərəkatında iştirakı mövzuları əsas yer tutur. O, həmçinin Azərbaycan ədəbiyyatında Stalin repressiyası həqiqətlərindən söz açan ilk memuar əsərin müəllifidir.

Vəsait iki hissədən ibarətdir. I hissədə yazıçının həyat və yaradıcılığından bəhs edilir. “Süleyman Vəliyev dünyası” adlanan II hissədə isə ədibin yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

Aşağıdakı linklərdə metodik vəsaitlərlə tanış ola bilərsiniz:

https://www.clb.az/qiblgah-hqiqt-olan-air-qabil_d3211.html

https://www.clb.az/facili-mrn-qmli-dastann-yazan-dib_d3210.html

# Şirvanın parlayan ulduzu olmuş qədim Şabran



Şirvanşahlar dövlətinin ilk paytaxtı olmuş Şabran şəhəri Azərbaycanın mədəni, siyasi həyatında mühüm yeri olan, zəngin tarixə malik qədim şəhərlərindəndir. Tədqiqatçılar yazılı tarixi mənbələrə və şəhərin digər hissələrində aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq burada hələ eramızdan 3 min il əvvəl yaşayış olduğunu müəyyən etmişlər.

Tarixi mənbələrdə bu şəhərin adına Şabran, Şabiran, Şaburan, Sabiran kimi rast gəlinir. “Şabran” sözünün etimologiyasına gəldikdə isə, onun türk tayfaları Sabirlərlə əlaqədar olması daha inandırıcıdır. Müxtəlif fonetik dəyişikliklərlə Orta Asiyada da mövcud olan Şabran toponimi Sabran, Sabiran, Şabiran, Şabran şəklində işlədilmişdir.

Tarixi mənbələrin verdiyi məlumata əsasən və qazıntıların nəticələrinə görə, Şabran şəhərinin əsası V-VI əsrdə qoyulmuşdur. Şəhərin yaranması Sasani hökmdarı Xosrov I Ənuşiravanın adı ilə bağlıdır. VII əsrdə Şabran ərəblər tərəfindən işğal edilmişdir. Ərəb-Xəzər müharibəsi dövründə Şabran dəfələrlə əldən-ələ keçmişdir.

Böyük İpək Yolunun üzərində yerləşən şəhər ipək ticarətinin mərkəzlərindən idi. IX əsrdən başlayaraq Şabranda şüşə istehsalı, ipəkçilik, dulusçuluq, metalişləmə və başqa sənətkarlıq sahələri inkişaf etmişdir. Orta əsrlərdə böyük zərbxanalardan biri də Şabranda idi.

Şabran ölkəmizə gələn səyyahların həmişə marağında olmuşdur. XVII əsr məşhur türk səyyahı Övliya Çələbinin yolu Şabrandan keçmişdir. Çələbi yazır ki, Şabran böyük bir şəhərdir. Bu şəhərin 70 məhəlləsi və 70 məscidi var. O öz gözəlliyi ilə insanı heyran edən mərmərlə bəzədilmiş bu məscidlər içərisində Uzun Həsən, Toxmaq xan (Məhəmməd xan Ustaclı), Unqar xan Çələbi, Əfşar xan məscidlərinin adlarını çəkir. Şabran şəhərinin Səfəvilər dövlətində havasına və suyuna görə Təbrizdən sonra ikinci yeri tutduğunu yazan Abbasqulu ağa Bakıxanov bu yeri “cənnət bağı” adlandırır.

Şirvanşah I Axsitanın qəzəbinə tuş gələn məşhur Azərbaycan şairi Xaqani Şirvani 7 ay Şabran həbsxanasında dustaq olmuşdur. O, həmin zindanda qələmə aldığı şeirlərini “Həbsiyyə” adlandırmışdır.



Xaqaninin müasiri və dostu şair Fələki Şirvani də Şabranda məhbəs həyatı yaşamışdır.

Şirvanşah I İbrahimin uzaqgörən siyasəti və diplomatik bacarığı sayəsində Şirvan, eləcə də böyük savaşların meydanına çevrilən Şabran şəhəri XIV əsrdə Orta Asiyada meydana gələn Teymurilər dövlətinin basqınlarının hədəfindən yayınmışdır. Terek sahillərində gedən döyüşlərdə Qızıl Orda xanı Toxtamışı məğlub edən Əmir Teymura bu döyüşdə onu müşayiət edən Şirvanşah I İbrahim Şabranda böyük ziyafət vermişdir.

Qeyd etmək lazımdır ki, Şabranda 1935, 1937 və 1939-cu illərdə tarixçi alim, professor Sara Aşurbəyli, 1979-cu ildə arxeoloq, professor Cabbar Xəlilovun rəhbərliyi ilə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır.

1980–1983-cü illərdə Qazıməmməd (Hacıqabul)–Mozdok qaz kəməri xəttinin çəkilişi ilə əlaqədar Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu Arxeologiya və etnoqrafiya sektorunun Şirvan-Şabran arxeoloji ekspedisiyasının müdiri, professor Rəşid Göyüşovun rəhbərliyi ilə qazıntı işləri davam etdirilmişdir.

2002-ci ildə Şabran şəhərində tarix elmləri doktoru Fatma Abbasovanın rəhbərliyi ilə arxeoloji qazıntı işləri yenidən başlanılmışdır. Şabranda aparılan arxeoloji qazıntılar nəticəsində Şirvanşah Məhəmməd ibn Əhməd tərəfindən 973–983-cü illərdə tikdirilmiş qala divarları aşkar edilmişdir. Araşdırmalar zamanı həmçinin həbsxana kompleksi, zərbxana, metal emalı mərkəzləri, zərgərlik, misgərlik və metalişləmənin digər sahələrinə aid alətlər maddi mədəniyyət nümunələri aşkar edilmişdir.



Ərazidəki qazıntılarda dulusçu emalatxanaları, toxuculuğun, daşişləmə sənətinin, eləcə də kənd təsərrüfatı üzrə ticarət əlaqələrinin inkişafını əks etdirən tarix yadigarları üzə çıxarılmışdır.

Mənbələrə görə, V-VII əsrlərdə qala-şəhər olan Şabran IX-X əsrlərdə siyasi-inzibati, ticarət, sənətkarlıq mərkəzinə çevrilir. Şəhər X-XI əsrlərdə Şirvanşahların əsas siyasi mərkəzi hesab edilirdi. XI əsrin ortalarında Şirvanşahların ailə sərdabəsi Şabranda olmuşdur. 1027-ci ildə vəfat edən Şirvanşah Yezid ibn Əhmədin, 1067-ci ildə onun qızı Şəmkuyənin Şabranda ailə sərdabəsində dəfn olunması haqqında məlumat var. Bu faktlar onu deməyə əsas verir ki, Şirvanşahlar nəslinin əsas hissəsi Şamaxıda deyil, Şabranda yaşamışdır. Tez-tez yadellilərin basqınlarına məruz qalan Şabran XVIII əsrin ortalarında tarix səhnəsindən silinmişdir.

Qeyd edək ki, Prezident Heydər Əliyevin 27 sentyabr 2003-cü il tarixli sərəncamı ilə qədim Şabran şəhər yerinin tarixi irsinin qorunması və öyrənilməsi məqsədilə “Şabran şəhəri” Tarix-Memarlıq Qoruğu yaradılmışdır. Prezident İlham Əliyevin 22 oktyabr 2019-cu il tarixli sərəncamına əsasən, “Çıraqqala” və “Şabran şəhəri” tarixi qoruqlarının ərazisi “Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmişdir.

**Fərrux MUXTAROV**
**“Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğunun elmi işçisi**

# Bir yay günü soyuq arxivdə

## Könül Nəsibova: “820-dən artıq fondda 120 mindən çox nümunə xüsusi temperatur rejimində saxlanılır”

Ədəbiyyat, mədəniyyət və incəsənət nümunələrimizin saxlanc yeri olan məkanlardan biri də Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxividir. 1966-cı ildə fəaliyyətə başlayan arxiv ilk vaxtlardan öz məqsəd və məramına layiqincə xidmət edib.

Təbii ki, ölkəmizdə ədəbi-mədəni irslə bağlı bu arxiv işinin təşkilində görkəmli alim, repressiya qurbanı Salman Mümtazın (1884–1941) müstəsna yeri var. Elə buna görə də 1996-cı ildə arxivə bu mərhum mətnşünasın adı verilib.

İsti yay günlərinin birində arxivə yollanıb soyuq (qorunan materiallarla bağlı temperaturun tənzimlənməsi bunu tələb edir) fondlarında gəzişdik. Arxivin direktoru Könül Nəsibova ilə müəssisənin fəaliyyəti barədə söhbət etdik. Həmçinin burada qorunan nadir əlyazmalar, qəzet və jurnal nömrələri ilə də tanış olduq.

*– Könül xanım, arxivin missiyası nədən ibarətdir?*

– Arxivimiz Milli Arxiv İdarəsinin sisteminə daxildir və ona tabedir. Biz milli arxiv fondu haqqında qanuna uyğun olaraq hakimiyyət orqanlarının, ölkənin mədəni, ədəbi, ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən idarə və təşkilatların, eləcə də görkəmli mədəniyyət və incəsənət, elm xadimlərinin sənədlərini toplayır, onların mühafizə və istifadəsini təşkil edirik.





*– Bizim üçün də, oxucularımız üçün də maraqlıdır: siz nələri və necə toplayırsınız?*

– Arxivdə orijinal əlyazmaları, foto və tərcümeyi-hal sənədlərini toplayır, siyahısını hazırlayırıq. İlkin olaraq onları ekspertizadan keçirib sistemləşdiririk. Hər hansı ədəbiyyat, elm, mədəniyyət xadiminin şəxsi arxivini bağlama şəklində alırıq. Bu zaman həmin materiallar arxiv qaydalarına uyğun olaraq işlənib qruplaşdırılır. Biz ilk olaraq ekspertizadan keçən materialları toplayırıq. Əlyazmaların, foto və digər materialların ilkin, orijinal, nadir nüsxələrini saxlayırıq. Bu, bəzən sadə müqayisədən bəlli olur, bəzən də uzun-uzadı mütəxəssis araşdırmasına ehtiyac duyulur. Hər şəxs və ya onun materialları arxivimiz üçün maraqlı olmaya bilər.

*– Sənədlərin qəbul prosesindən danışaq. Bizdə bu istiqamətdə ümumən maarifləndirmə işi zəifdir.*

– İllərdir bu sahədə çalışıb, hər dəfə yeni fondlar qəbul etsək də, hər yeni fond, xüsusən çoxdan arzusunda olub, arxivini ala bilmədiyimiz adları görəndə mən də sizin kimi həyəcanlanıram. Çünki ola bilər o görkəmli şəxs və ya ailə üzvləri onun sənədlərinin gələcək nəsillər, tədqiqatçılar üçün nə dərəcədə önəmli olduğunun fərqində olmasın. Bunu o arxivi qəbul edərkən hiss edirik. Elələri var çox səliqəli şəkildə təqdim olunur, bəziləri da dağınıq, səliqəsiz. Bəzən bir fond üzərində günlərlə işləyib səliqəyə salırıq.

*– Arxiv fonduna kimlər və hansı nümunələr düşür? Təqdim olunan və sizin meyarlara uyğun olmayan nümunələrin geri qaytarılması necə olur? Hansısa aidiyyəti muzey və fondlara göndərirsiniz?*

– Arxiv fondu haqqında mövcud qanuna əsasən, buraya yalnız hər hansı dövlət orqanı tərəfindən təltif olunan şəxslər, yəni kino, teatr, musiqi, incəsənət, elm, ədəbiyyat sahəsində fəxri adları olan şəxslər düşə bilərlər. Bizim müəyyən olunmuş siyahımız var və yalnız o nümunələri qəbul edirik. Qalan nə varsa – bu foto, video, rəsm əsəri, kitab və bu kimi materiallar da ola bilər ki, onları da müvafiq qurumlara yönəldirik. Bu barədə arxivi təqdim edən şəxslərə də əvvəlcədən məlumat veririk. Bəzən, sadəcə, bizə təqdim edəcəklərini deyirlər və götürməyəndə də yenidən evlərinə aparırlar.

*– Siz daha çox nələri qəbul edirsiniz? Onların əhəmiyyətlilik dərəcəsi hansı meyarla təyin edilir?*

– Biz əlyazmaları, cızmaqaraları, məqalələri, məktubları və s. qəbul edirik. Arxiv qaydalarına uyğun olaraq elmi əhəmiyyət kəsb edib-etmədiyini, gələcəkdə tədqiqat obyekti olub-olmayacağını təyin edib seçirik. Fond içərisində fondlar da yığıla bilir.

*– Bir neçə il əvvəl sosial şəbəkələrdə görkəmli şairlərimizdən birinin əlyazma və şəxsi arxivinin tullantı yerlərinə atılması ilə bağlı fotolar yayılmışdı. Bu fakt göstərir ki, bəzən o şəxslərin ailə üzvləri əzizləri dünyadan köçdükdən sonra arxivlərinin taleyinə biganə yanaşırlar. Bu sahədə maarifləndirmə işi aparırsınızmı?*

– Bəli, siz deyən və başqa bir neçə fakt eşitmişik. Buna görə təəssüflənmişik. Laqeydlikdən başqa, bizi ağrıdan digər məqam da arxivə təqdim olunacaq materialların evlərdə itib-batması, şəraitsiz otaq və uyğun olmayan dolablarda, zirzəmilərdə, qarajlarda saxlanılıb yararsız hala salınmasıdır. Bu barədə sizə saysız ürək ağrıdan fakt da deyərəm.

> “Fondların zənginləşməsi üçün tanınmış şəxslərin ailə üzvlərinə zəng edirik, bəzən günlərlə, aylarla söhbət aparırıq... Təəssüf ki, hələ də Qara Qarayev, Fikrət Əmirov kimi görkəmli bəstəkarlarımızın, başqa ədəbiyyat, mədəniyyət xadimlərimizin sənədləri arxivimizdə yoxdur”.

Təcrübəmdə valideyninin, yaxud hər hansı ailə üzvünün arxivi müəyyən pul müqabilində fonda verə biləcəyini deyənlər də görmüşəm. Təbii ki, biz hər kəsin qərar və fikrinə hörmətlə yanaşırıq. Amma onu da qeyd edim ki, arxiv fondu xalqın milli-mənəvi dəyəridir və orada arxivi olmaq heç də hər kəsə nəsib olmur. Amma bizimlə illərlə əməkdaşlıq edən və arxiv işinin önəmini anlayan insanlar da çoxdur.

*– Yaradıcı şəxslərlə, onların ailə üzvləri ilə işbirliyiniz həmişə uğurlu alınırmı? İnsanları əmanət etdikləri materialların etibarlı qorunacağına inandıra bilirsinizmi?*

– Xalq yazıçısı və şairlərinin, demək olar ki, əksəriyyətinin fondu bizdədir. Çoxu da hələ sağ ikən təqdim edib. Biz o fondların zənginləşməsi və yeni nümunələrin təqdimatı üçün ailə üzvlərinə zəng edirik, saxlanma və mühafizə şəraitindən o nümunələrə olan ehtiyacadək bəzən bir şəxslə günlərlə, aylarla söhbət aparırıq.

*– Necə düşünürsünüz, arxiv mədəniyyət və incəsənətimizi yetərincə əhatə edə bilirmi? Məlumdur ki, fəxri adı olmayan, lakin mədəniyyət sahəsində mühüm xidmətləri olmuş sənət adamları da var. Onların tədqiqat, gələcək üçün vacib hesab olunacaq materialları harada toplanır?*

– Sualınızın birinci hissəsi ilə bağlı deyim ki, bəli, demək olar ki, əhatə edir. Vaxtilə bu arxivi yaradanlar və ona maraq göstərənlər yaxşı ənənələr qoyublar və biz də onu davam etdirməyə çalışırıq. Hazırda 120 mindən çox saxlama vahidimiz, 820-dən artıq fondumuz var.

> “Muzeylər, xüsusən mənzil-muzeylər özlərinə aid olmayan materialları da saxlamağa çalışırlar. Respublikada arxiv fondu təyinatı üzrə müvafiq quruma həvalə olunub. Belə olduğu halda niyə ayrı-ayrı təşkilatlar şəxsi əlyazmaları, arxivləri qəbul edirlər?”.

Sualınızın ikinci hissəsi ilə maraqlı məqama toxundunuz. Elə insanlar var ki, onların heç bir fəxri adı yoxdur, amma dövlət üçün, sənət üçün xidmətləri, yaradıcılıq işləri var. Biz bu istisnaları nəzərə alırıq və onları da qəbul edirik. Düzdür, əvvəllər belə bir meyar yox idi. Amma yeni qaydalara uyğun olaraq əhəmiyyət kəsb edən sənədləri qəbul edir və ümumi toplulardan (ədəbiyyat, incəsənət, fotoşəkillər və s.) birinə daxil edirik. Zaman-zaman fondlarda yerdəyişmələr, sıxlaşdırmalar edirik. Çalışırıq ki, mühafizə şəraitimizin imkanları daxilində daha çox nümunə toplayıb və qoruyaq.

*– Fonda daxil edilən ilk sənəd hansı təşkilat və ya şəxsin adı ilə bağlıdır?*

– Bir nömrəli fond görkəmli alim və yazıçı Mir Cəlal Paşayevindir. Ona müraciət edərkən sənədlərini düşünmədən təqdim edib. Tanış olarkən özünüz də gördünüz ki, o həm özü, həm də arxivində saxladığı digər ədəbiyyat, mədəniyyət, elm xadimlərinin əlyazmalarına, məqalələrinə, fotolarına, məktublarına necə səliqə ilə yanaşıb, qoruyub saxlayıb.

*– Arxiv hansı dövrləri əhatə edir və sadə vətəndaşlar ondan necə istifadə edə bilərlər? Saxlama vahidlərinin elektron kataloqu varmı?*

– Arxiv fondu XIX əsrin sonundan bu günümüzə qədər olan dövrü əhatə edir. Hazırda bizdə siyahıların elektronlaşdırılması işi davam edir. Bu yaxınlarda elektron siyahılar sistemə oturdulacaq. Amma sənədlərin elektronlaşdırılması uzun vaxt apara bilər.



*– Arxivdən istifadə qaydaları necədir?*

– Bizə istər təşkilatlar, istərsə də fərdi şəxslər rəsmi qaydada məktub əsasında müraciət edirlər.

*– Bir qədər öncə əməkdaşlarınızın iş prosesi ilə tanış olarkən qovluqların üzərində “Mehdi Hüseyn” yazısını oxudum. Onun fondu indi yığılır?*

– Təəssüf ki, bəli, indi yığılır. Çox çətinliklə buna nail olduq. Akademik Teymur Bünyadovun sayəsində bu fond yaranır. Əlimizdə, sadəcə, onda olan arxiv var. Hələ də oğlu özündə olan sənədləri təqdim etmək istəmir, bizimlə əməkdaşlıqdan imtina edir. Bu problem bununla bitmir. Hələ də görkəmli bəstəkarlarımız Qara Qarayevin, Fikrət Əmirovun sənədləri arxivimizdə yoxdur və tədqiqatçılar onlarla bağlı çoxsaylı müraciətlər edirlər. Son olaraq Arif Məlikovu qeyd etməliyəm. Görkəmli bəstəkarımızla hələ sağlığında sənədlərini, not yazılarını arxivə təqdim edəcəyi ilə bağlı razılığa gəlsək də, əfsus ki, dünyasını dəyişdi. Ailə üzvləri isə hələ ki, müsbət cavab vermirlər. Hazırda Xalq şairləri Nəriman Həsənzadə və Zəlimxan Yaqubun sənədlərini toplamaqla məşğuluq.

Bu məqamda “Mədəniyyət” qəzeti vasitəsilə ədəbiyyat, mədəniyyət və elm xadimlərimizə müraciət edərək deyirəm, vaxtında arxivlərini bizə təqdim etsinlər ki, onların irsi uzun illər yaşamış olsun. Bu günlərdə bir mədəniyyət xadiminə arxivini təqdim etməklə bağlı müraciət edərkən “Mənim hələ ölmək fikrim yoxdur” kimi cavab eşitdim. Əzizlərim, hər kəs bilməlidir ki, bura təkcə ölülərin deyil, dirilərin də arxividir.

*– Muzeylərlə necə, əlaqələriniz varmı? Yəqin daha çox mənzil-muzeylərlə əməkdaşlıq edirsiniz...*

– Bəli, birgə sərgilər təşkil edirik, müraciətlərə daim müsbət cavab veririk. Amma, təəssüf ki, muzeylər, xüsusən mənzil-muzeylər özlərinə aid olmayan materialları da saxlamağa çalışırlar. Bu, doğru deyil. Yeri gəlmişkən, bir narazılığımı da dilə gətirmək istəyirəm. Respublikada arxiv fondu yalnız təyinatı üzrə müvafiq quruma həvalə olunub və orada toplanır. Belə olduğu halda niyə ayrı-ayrı təşkilatlar şəxsi əlyazmaları, şəxsi arxivləri qəbul edirlər? Hərçənd onların əsasnaməsində bu məqam yoxdur. Əlyazmaların, sənədlərin saxlanma yeri buradır. Kino və foto lentləri qorumalı olan təşkilatın yazı, əlyazma arxivini saxlaması mənasızdır.

*– Bayaqdan saxlama vahidləri arasında gəzirik, saysız adlar göz önündən keçir. Oxucular üçün maraqlı ola biləcək hansı şəxs və nümunələrin adlarını çəkə bilərsiniz?*

– “Molla Nəsrəddin” jurnalının ilk nüsxəsi məhz bizdə saxlanılır. Ümumiyyətlə, xüsusilə əhəmiyyətli materialların saxlanıldığı 11 mühafizə yerimiz var. Ədəbiyyatşünas Əziz Şərifin fondu zənginliyi baxımından xüsusilə seçilir. Bilirsiniz ki, o, Moskvada yaşayıb-yaradıb. Özü sağlığında bütün şəxsi arxivini bura təqdim edib. Zəngin fondlarımızdan biri də Xalq şairi Mirvarid Dilbaziyə aiddir. Onun da bütün əlyazmaları arxivimizdədir. Eləcə də Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Əliağa Vahid, Cəlil Məmmədquluzadənin əlyazmaları tədqiqatçılar üçün maraq doğurur.

Gördüyünüz kimi, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz üçün xidmətləri olan şəxslərin külliyyatı necə yüksək səviyyədə mühafizə olunaraq bizdən sonrakı nəsillərə miras kimi ötürülür. Arzu edirəm ki, mədəniyyət, ədəbiyyat xadimlərimiz bu arxivin həqiqi əhəmiyyətini anlasınlar və zamanında bizimlə əməkdaşlıq etsinlər.

**Söhbətləşdi:**
**Həmidə NİZAMİQIZI**

## Xatirə təqvimi — 22–26 iyul

### Azərbaycan

**22 iyul 1884** – Filosof və tarixçi, Azərbaycan Elmlər Akademiyasının akademiki Aleksandr Osipoviç Makovelski (1884-1969) anadan olub. 1920-1960-cı illərdə Bakı Dövlət Universitetində dərs deyib, akademiyanın Fəlsəfə İnstitutunun direktoru olub.

**22 iyul 1941** – Xalq artisti, diktor Yusif Mehdi oğlu Muxtarov (1941 – 25.4.2010) Sabirabad rayonunun Kürkəndi kəndində doğulub. Filmlərdə, teletamaşalarda çəkilib. Filmlərin səsləndirilməsində iştirak edib.

**22 iyul 1949** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan Dövlət Akademik Dram Teatrı “Qırmızı Əmək Bayrağı” ordeni ilə təltif edilib. Azərbaycan milli teatrının 75 illik yubileyi münasibətilə, həmçinin S.Ruhulla, M.A.Əliyev, M.Davudova SSRİ Xalq artisti adına layiq görülüblər.

**22 iyul 1949** – Xalq artisti Yuri Nikolayeviç Baliyev (1949-2018) anadan olub. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyoru olub, filmlərə (“Ovsunçu”, “Hökmdarın taleyi” və s.) çəkilib.

**22 iyul 1959** – Şair Akif Səməd (Akif Səməd oğlu Məmmədov; 1959-2004) Qazax rayonunun Astanbəyli kəndində anadan olub. “Uzaqlardan gəlirik”, “Özümə yol” və s. kitabların müəllifidir.

**23 iyul 1883** – Ədəbiyyatşünas və publisist Abdulla Sur (Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadə; 1883 – 8.5.1912) anadan olub.

**23 iyul 1916** – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Maral Yusif qızı Rəhmanzadə (1916 – 16.3.2008) Bakıda anadan olub. Əsərləri Moskvada Tretyakov qalereyasında, digər xarici muzeylərdə saxlanılır.

**23 iyul 1927** – Əməkdar rəssam Hafiz Əliabbas oğlu Zeynalov (1927 – 2.5.1996) Bakıda anadan olub. Tarixi mövzulu kompozisiyalar, tanınmış şairlərin portret-obrazları, məişət janrlı tablolar və natürmortların müəllifidir.

**23 iyul 2011** – Tanınmış xanəndə, Əməkdar artist Sabir Nüsrət oğlu Mirzəyev (1942-2011) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Muğam və xalq mahnılarının mahir ifaçısı kimi tanınıb.

**24 iyul 1937** – Xalq artisti, kinorejissor Yalçın Əliheydər oğlu Əfəndiyev (1937 – 10.12.2019) Bakıda doğulub. Cizgi və sənədli filmlərin müəllifidir, “Xatirələr sahili” bədii filminə quruluş verib. “Azərbaycantelefilm”in bədii rəhbəri olub.

**24 iyul 1949** – Əməkdar artist Tofiq Əbdülrəhim oğlu Hüseynov (1949 – 5.7.2020) Xırdalanda anadan olub. İrəvan, Sumqayıt Dram, Gənc Tamaşaçılar teatrlarında çalışıb. 2001-ci ildən Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**24 iyul 1956** – Əməkdar artist Gülnar Əlifağa qızı Salmanova (1956 – 25.10.2015) Salyan rayonunun Xıllı qəsəbəsində doğulub. Musiqili Komediya Teatrının aktrisası olub.

**25 iyul 1935** – Şair, publisist, Dövlət mükafatı laureatı Məstan Günər (Məstan Rəsul oğlu Əliyev; 1935-2010) Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. Lirik şeirləri ilə yanaşı, uşaqlar üçün mənzum nağılların da müəllifidir.

**25 iyul 1935** – Nasir, ədəbiyyatşünas Vasif Nəsiboğlu (Əfəndiyev; 1935-1997) anadan olub.

**26 iyul 1915** – Əməkdar artist, teatr rejissoru Əliheydər Əbdüləli oğlu Ələkbərov (1915 – 14.3.1975) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Azərbaycan Dövlət Teatr İnstitutunda dərs deyib.

**26 iyul 1920** – Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə “geniş zəhmətkeş proletar kütləsinin musiqi savadı” alması məqsədilə Bakının səkkiz fəhlə rayonunda şöbəsi olan musiqi təhsili müəssisəsi – Xalq Konservatoriyası açılıb. Bir il sonra Azərbaycan Dövlət Konservatoriyası yaradıldı.

**26 iyul 1947** – Əməkdar mədəniyyət işçisi, tanınmış fotojurnalist Farid Xabibullayeviç Xayrulin (1947 – 27.8.2020) Bakıda anadan olub.

**26 iyul 1954** – Əməkdar mədəniyyət işçisi Rəhman Ağarəhim oğlu Quliyev (1954-2010) anadan olub. Azərbaycan Dövlət Kukla Teatrının direktoru olub.

**26 iyul 1995** – Xalq yazıçısı, ədəbiyyatşünas, publisist, ictimai xadim İsmayıl Şıxlı (22.3.1919 – 1995) vəfat edib. Azərbaycan Yazıçılar İttifaqının birinci katibi (1981-1987), Milli Məclisin deputatı (1990-1995) olub.

**26 iyul 2008** – Xalq rəssamı Nadir Qənbər oğlu Əbdürrəhmanov (5.12.1925 – 2008 ) vəfat edib. Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin sədri olub.

### Dünya

**22 iyul 1889** – Amerika rejissoru, qorxu filmlərinin yaradıcılarından Ceyms Veyl (James Whale; 1889-1957) anadan olub. Filmləri: “Köhnə qaranlıq ev”, “Gözəgörünməz adam”, “Dəmir maskalı adam” və s.

**22 iyul 1926** – Rus yazıçısı Sergey Baruzdin (1926-1991) anadan olub. Əsərləri: “Qadınlar haqqında povest”, “Yarpaq tökümü” və s. Uşaqlar üçün kiçik hekayələrin müəllifidir.

**23 iyul 1884** – Alman aktyoru, “Oskar” mükafatının ilk əcnəbi laureatı Emil Yanniqs (Emil Jannings; 1884-1950) anadan olub.

**23 iyul 1888** – Amerika yazıçısı Reymond Çandler (Raymond Chandler; 1888-1959) anadan olub. Əsərləri əsasında “Dərin yuxu”, “İkiqat sığorta” və s. filmlər çəkilib.

**24 iyul 1802** – Fransız yazıçısı, tarixi və macəra romanlarının müəllifi Aleksandr (ata) Düma (Alexandre Dumas, pere; 1802 – 5.12.1870) anadan olub. Əsərləri: “Qraf Monte Kristo”, “Üç muşketyor”, “Dəmir maskalı adam”, “Qara zanbaq”, “Kraliça Marqo” romanları, “III Henrix və onun sarayı” dramı və s.

**24 iyul 1803** – Fransız bəstəkarı Adolf Adan (Adolphe Charles Adan; 1803-1856) anadan olub. “Jizel” və “Korsar” baletlərinin müəllifidir.

**24 iyul 1828** – Rus yazıçısı və ədəbiyyatşünası Nikolay Qavriloviç Çernışevski (1828-1889) anadan olub. Əsərləri: “Nə etməli” (roman), “İncəsənətin gerçəkliyə estetik münasibəti” (kulturoloji tədqiqat) və s.

**24 iyul 1857** – Danimarka yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1917) Henrik Pontoppidan (1857-1943) anadan olub. Əsərləri: “Müqəddəs torpaq”, “Xoşbəxt Pyotr”, “Ölülər çarlığı”.

**25 iyul 1905** – Yəhudi əsilli Avstriya yazıçısı, kulturoloq, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1981) Elias Kanetti (1905 – 1994) Bolqarıstanın Ruse şəhərində anadan olub. Əsərləri: “Şöhrətpərəstlik komediyası”, “Kütlə və hakimiyyət” və s.

**25 iyul 1929** – Rus yazıçısı, rejissor, aktyor Vasili Makaroviç Şukşin (1929 – 2.10.1974) anadan olub. Filmləri: “Belə bir oğlan yaşayır”, “Qəribə adamlar”, “Qırmızı başınağacı” (hər üçündə ssenarist, rejissor, sonuncu filmdə həm də baş rol ifaçısı).

**26 iyul 1856** – İngilis (irland əsilli) yazıçı və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1925) Corc Bernard Şou (George Bernard Shaw; 1856 – 2.11.1950) Dublin şəhərində doğulub. “Kandida”, “Piqmalion”, “Şeytanın şagirdi” və s. pyeslərin, “Artistin məhəbbəti”, “Keşel Bayronun sənəti” romanlarının müəllifidir.

**26 iyul 1885** – Fransız yazıçısı, psixoloji və bioqrafik romanların müəllifi Andre Morua (Andre Maurois – əsl adı Emile Salomon Wilhelm Herzog; 1885-1967) anadan olub.

**26 iyul 1894** – İngilis yazıçısı Aldos Haksli (Aldous Leonard Huxley; 1894-1963) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

**Elan**

Vəliyev Turqut Tehran oğluna məxsus Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin İnformasiya sistemləri və texnologiyaları idarəsinin 0275 nömrəli xidməti vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

№54-55 (1832)
23 iyul 2021
www.medeniyyet.az

# Türk respublikalarının müstəqilliyinin 30 illiyi münasibətilə

## TÜRKSOY-un səyyar sərgisi Yalovada nümayiş olunub

Türk respublikalarının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən təşkil olunan sərginin Türkiyənin şəhərlərində səyyar nümayişi davam edir.

Növbəti tədbir Yalova şəhərində təşkil olunub. Sərgi Yalova Folklor Təhsil Mərkəzi Gənclər və İdman Klubları Dərnəyi (YAFTM) tərəfindən bu il 24-cü dəfə təşkil edilən "Türk xalqlarının mədəniyyət festivalı" çərçivəsində düzənlənib.

YAFTM tərəfindən ənənəvi olaraq təşkil edilən və türk xalqlarının görüş yerinə çevrilən festival iştirakçıların kortej yürüşü ilə başlayıb. Müxtəlif ölkələrdən sənətçilərin və xalq rəqs qruplarının qatıldığı yürüş rəngli görüntülərlə yadda qalıb.



Sərginin açılış mərasimində TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı, YAFTM-in rəhbəri Özer Koyuncu, Yalova şəhər Mədəniyyət və turizm şöbəsinin müdiri Şeref Tali və TÜRKSOY İdarə, Maliyyə və Hüquq İşləri şöbəsinin müdiri Sancar Mülazımoğlu iştirak ediblər.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan fotoqraflarının çəkdikləri şəkillər maraqla qarşılanıb.

Qeyd edək ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın tarixi-mədəni irsi və müasir inkişafını əks etdirən fotoların yer aldığı sərgi bundan öncə Ankara, İzmir (Seferihisar), Aydın, Dənizli və İsparta şəhərlərində nümayiş olunub.

**Mehparə SULTANOVA**
**Ankara**

# Qahirədə Nizami Gəncəviyə həsr olunmuş tədbir keçirilib

Qahirədə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbir ölkəmizin Misirdəki səfirliyi və Azərbaycan dilini təbliğ və tədris etmək məqsədilə Qahirədə yaradılmış EPS dillər mərkəzinin birgə təşkilatçılığı ilə gerçəkləşib.



Əvvəlcə ESP dillər mərkəzində Azərbaycan dili kurslarında təhsil alan misirli gənc qızlar dövlət himnimizi səsləndiriblər.

Azərbaycan səfirliyinin əməkdaşı Emil Rəhimli çıxış edərək dahi Nizami Gəncəvinin həyat və yaradıcılığından danışıb. Qeyd edib ki, Şərq poeziyası və fəlsəfi fikrinin İntibah dövrünün ən böyük nümayəndələrindən olmuş şairin yubileyi münasibətilə Misirdə silsilə tədbirlər keçirilir.

EPS dillər mərkəzinin rəhbəri İsra Adil bildirib ki, Nizaminin yubileyi münasibətilə keçirilən tədbirlər dil kurslarına gələn gənclərə Azərbaycan mədəniyyəti və ədəbiyyatı haqqında dərin biliklər verməyə imkan yaradır. Azərbaycan dilini öyrənən tələbələr artıq dahi şairin əsərlərini ana dilimizdə oxuya bilirlər.

Sonra misirli gənclər Nizaminin "Leyli və Məcnun" poeması əsasında hazırlanan səhnəcik təqdim ediblər. Səhnəciyi hazırlayan və rolları ifa edən tələbələrə Azərbaycan səfirliyi tərəfindən hədiyyələr və təşəkkürnamə təqdim olunub.

# Avropada ümumi tədqiqatlar məkanı yaradılacaq

Avropa İttifaqı (Aİ) ölkələri tədqiqatlar, innovasiya və texnologiyalardan ümumi və sərhədsiz istifadə üçün "Avropa Tədqiqatlar Məkanı" təşəbbüsünü yenidən canlandırmaq niyyətindədir.

Bu barədə Avropa İttifaqı Şurasına sədrlik edən Sloveniyanın təşkilatçılığı ilə Aİ ölkələrinin tədqiqatlar üzrə məsul nazirlərinin qeyri-formal görüşündə müzakirələr aparılıb.



2000-ci ildə təsis edilən və 2018-ci ildə bərpası istiqamətində addımlar atılan təşəbbüsün əsas hədəfi Aİ məkanında tədqiqatçıların mobilliyini, bilik mübadiləsini artırmaq, tədqiqatlar və innovasiyalara sərmayələri intensivləşdirmək, ali təhsil müəssisələri, işgüzar dairələr həmçinin digər tədqiqat aktorları arasındakı əməkdaşlığı dərinləşdirməkdir.

Müzakirələr zamanı qeyd edilib ki, sərhədləri aşan təşəbbüs çərçivəsində Aİ məkanında tədqiqatlar, innovativ layihələr sahəsində investisiyalar və islahatlar gücləndiriləcək, Avropanın rəqəmsal və yaşıl inqilaba nail olması üçün strateji hədəflər müəyyənləşdiriləcək.

Görüşdə həmçinin bildirilib ki, yenilənmiş Avropa Tədqiqatlar Məkanı milli və Avropa tədqiqatlar siyasətinin uğurlu bağlantısına çevrilməlidir. İlin sonunadək Aİ ölkələri yenilənmiş Avropa Tədqiqatlar Məkanının ilk sütunu sayılacaq tədqiqatlar və innovasiyalar üzrə paktı imzalamaq niyyətindədirlər.

# Bir il ertələnən Kann festivalının qalibləri

## "Qızıl palma budağı" Fransada qalıb



Ötən il pandemiya səbəbindən təxirə salınan 74-cü Beynəlxalq Kann Film Festivalı təşkilatçılar tərəfindən alınan bir sıra ehtiyat tədbirlər fonunda, nəhayət, gerçəkləşdi.

Avropa və dünya kinosunun nüfuzlu müsabiqəsinin baş mükafatı – "Qızıl palma budağı" Fransada qalıb. Mükafatı fransız rejissor Julia Dukornonun "Titan" filmi qazanıb. Xanım Dukorno festivalın tarixində "Qızıl palma budağı"na layiq görülən ikinci qadın rejissordur.

Finlandiyalı rejissor Yuxo Kuosmanenin "6 nömrəli kupe" və iranlı rejissor Əsgər Fərhadinin "Qəhrəman" filmləri Qran-pri mükafatına ("Gümüş palma budağı") layiq görülüb.

Y.Kuosmane filmi rusiyalı kinematoqrafçılarla birgə ərsəyə gətirib. Filmin rusiyalı prodüseri Sergey Selyanov, baş kişi rol ifaçısı Yura Borisovdur.

Leos Karaks "Annett" filminə görə ən yaxşı rejissor seçilib. Festivalın ulduz aktyorlar filmi sayılan "Annett"də tanınmış simalar Adam Drayver və Marion Kotiyyar rol alıb. Yaponiyalı Rusuke Xamaquti və Takamasa Oe məşhur həmvətənləri Haruka Murakaminin hekayəsi əsasında ekranlaşdırılan "Mənim maşınımın sükanı arxasına keç" filminə görə ən yaxşı ssenarist seçiliblər.

Fərdi mükafatlar kateqoriyasında amerikalı aktyor Kaleb Lendri Cons ("Nitram") və Norveç əsilli aktrisa Renat Reinsve ("Dünyada ən pis adam") təltif olunublar. Festivalın debüt müsabiqəsində xorvatiyalı rejissor Antonet Kusiyanoviç ("Murina") mükafatlandırılıb. Münsiflər heyətinin mükafatına isə tailandlı rejissor Apitçatponu Virasetakulu ("Yaddaş") və israilli Nadav Lapid ("Ahedin dizi") layiq görülüblər.

Festivalın "Xüsusi baxış" müəllif filmləri kateqoriyasında rusiyalı rejissor Kira Kovalenko "Yumruqları açarkən" filminə görə mükafata sahib olub. Ekran əsəri Nalçik şəhərindən olan 31 yaşlı rejissorun karyerasında ikinci tammetrajlı filmidir.

Qeyd edək ki, iyulun 7-dən 16-dək davam edən 74-cü Kann Film Festivalının münsiflər heyətinə amerikalı aktyor Spike Li sədrlik edib.

**LALƏ**

# Milyarderlər kosmosu "su yolu"na döndərirlər

"Amazon" şirkətinin və "Blue Origin" aerokosmik kompaniyasının qurucusu, dünyanın ən varlı insanı olan Ceff Bezos iyulun 20-də Yerətrafı orbitə qalxıb.

Bezosla bərabər üç səyahətçinin də yer aldığı "New Shepard" kosmik gəmisi ABŞ-ın Texas ştatından havalanıb. Heyəti bütünlüklə mülki şəxslərdən ibarət pilotsuz kosmik uçuş tarixdə ilk dəfə həyata keçirilib.

Bezosa onun qardaşı Mark, 82 yaşlı amerikalı aviator Wally Funk və "Somerset Capitals Partner" şirkətinin yüksək vəzifəli menecerinin 18 yaşlı tələbə oğlu Olivier Deamen yol yoldaşlığı ediblər. Deamen kosmosa uçan ən gənc, Funk isə ən yaşlı insan olub.

Kosmik gəmi Yerin səthindən ümumilikdə 107 kilometr yüksəkliyə qalxıb. Kosmosa səfər isə cəmi 10 dəqiqə davam edib.

Qeyd edək ki, Ceff Bezosdan öncə, iyulun 11-də başqa bir amerikalı milyarder, "Virgin Atlantic" şirkətinin sahibi Riçard Brenson "Unity" kosmoplanında Yerin səthindən 85 kilometr yüksəkliyə qalxmışdı.

Amerikalı milyarderlərin kosmos sevdasının başlıca məqsədi biznes maraqlarıdır. Onlar öz nümunələri ilə kosmik turizmi təşviq etmək istəyirlər. Necə deyərlər, kosmik gəmi bizdən, müştəri də sizdən...

# Pikassonun "Beretli qızcığaz"ı kriptovalyuta ilə satılan ilk əsər olacaq

İsveçrənin "Sygnum" bankı dünya şöhrətli ispan rəssamı Pablo Pikassonun (1881–1973) əsərini rəqəmsal aktivlərlə satışa çıxaracaq.



Rəssamın 1964-cü ildə çəkdiyi "Beretli qızcığaz" ("Fillette au beret") adlı 65x54 santimetr ölçülü əsər 4 milyon İsveçrə frankı (3,6 milyon avro) dəyərində qiymətləndirilib. Əsərin satışı incəsənətə sərmayə yatırmaqda ixtisaslaşmış "Artemundi" Amerika Fondu ilə tərəfdaşlıq çərçivəsində təşkil olunacaq.

Əsərin tokenləşdirilmiş formada blokşeyn texnologiyası ilə satışı sərmayəçilərə internet vasitəsi, eləcə də bazar fondlarında danışıqlar aparmasına və ikinci bazarda ticarətinə imkan yaradacaq. Alıcılar və satıcılar "Sygnum" bankı vasitəsilə əlaqələndiriləcəklər.

Qurumun İsveçrədəki nəzarət orqanı olan "Finma" tərəfindən tənzimləndiyini israr edən kripto-bank bildirir ki, səhmlər və ya jetonlar minimum 5 min İsveçrə frankı ilə satışa çıxarılacaq. Əməliyyatlar əsas valyuta ilə dəstəklənən rəqəmsal valyuta formasında "Sygnum" bankının stabil jetonları ilə həyata keçiriləcək.

2019-cu ildə "Sygnum" dünyadakı ilk kripto banklarından biri olub.

# "Zəfər" kolleksiyası üçün "Ən yaxşı xalça"

"Azərxalça" ASC Azərbaycanın 2020-ci il Vətən müharibəsində qazandığı möhtəşəm Qələbəni "Zəfər" kolleksiyası ilə qeyd edəcək. Kolleksiyanın hazırlanması isə gənclərə həvalə olunacaq.

Bu məqsədlə "Azərxalça" ASC "Zəfər" kolleksiyası üçün "Ən yaxşı xalça" müsabiqəsi elan edib. "Zəfər" kolleksiyasının bir parçası olmaq, şanlı Qələbəyə həsr olunmuş əsərləri paylaşmaq və "Azərxalça" ASC-də çalışmaq istəyən bütün gənclər müsabiqəyə dəvət olunur.

Müsabiqəyə 21-35 yaşında rəssamlar, dizaynerlər, xalçaçı rəssamlar və s. qatıla bilərlər. İştirak etmək istəyənlər creative@azerxalca.az elektron ünvanına portfolio (15 foto) və "Zəfər" kolleksiyasına aid eskizləri (3 foto) göndərməlidirlər. Son qeydiyyat tarixi 8 avqustdur.

Münsiflər heyəti tərəfindən 20 nəfər ən yaxşı müsabiqə iştirakçısı müəyyən ediləcək. Seçilmiş gənclər bir ay ərzində "Azərxalça" ASC emalatxanalarında həm yerli, həm də xarici mütəxəssislər tərəfindən təlimə cəlb olunacaqlar.

Təlimlərdə ən yaxşı nəticə göstərmiş 3 gənc müsabiqənin sonunda mükafatlandırılacaq. Birinci yerin sahibi "Azərxalça" ASC-də rəsmi işə başlayacaq, digər iki gənc mütəxəssis ilə daimi əməkdaşlıq ediləcək. Təlim iştirakçılarının ən bəyənilən eskizləri "Zəfər" kolleksiyasının hazırlanmasında istifadə olunacaq.

# Milli Xalça Muzeyi Çeçenistanın Milli Muzeyi ilə əməkdaşlıq edəcək

Azərbaycan Milli Xalça Muzeyi ilə Rusiya Federasiyası Çeçenistan Respublikasının Milli Muzeyi arasında anlaşma memorandumu imzalanıb. Sənədi hər iki muzeyin direktorları – Şirin Məlikova və Zalina Mamayeva imzalayıblar.



İmzalanma mərasimi Şirin Məlikovanın Qroznı şəhərinə ezamiyyəti zamanı gerçəkləşib.

Memorandum tərəflər arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafı və genişləndirilməsi məqsədi daşıyır. Sənədə əsasən, muzey işi sahəsində tədqiqatlar aparılacaq, elmi işçilərdən ibarət nümayəndə heyətlərinin səfərləri və metodiki ədəbiyyat mübadiləsi, birgə sərgi layihələri reallaşdırılacaq.

Qeyd edək ki, Milli Xalça Muzeyi Azərbaycandan Çeçenistan Respublikasının muzeyləri ilə əməkdaşlıq edən ilk muzeydir.

Memorandum, həmçinin Azərbaycan-Rusiya mədəni əlaqələrinin inkişafına töhfədir.

# Vaqif Bayatlı Odərin yaradıcılığı Gürcüstanın ədəbiyyat portalında

Gürcüstanın "Axali saunce" ("Yeni xəzinə") ədəbiyyat portalı "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində tanınmış şair, Əməkdar incəsənət xadimi Vaqif Bayatlı Odərin gürcü dilinə tərcümə olunmuş "Dünya söndükcə, sən görünürsən, ilahi" şeirinə və şairin yaradıcılığı haqqında məlumata səhifə ayırıb.

"Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi Dövlət Tərcümə Mərkəzi tərəfindən həyata keçirilir. Mərkəzdən bildirilib ki, şeiri gürcü dilinə şair-tərcüməçi İmir Məmmədli çevirib.

Qeyd edək ki, Gürcüstanın Mədəniyyət, Gənclər və İdman Nazirliyi tərəfindən maliyyələşdirilən "Axali saunce" ədəbiyyat portalı dünya ədəbiyyatının yayını üzrə fəaliyyət göstərir. Oxucular portal vasitəsilə Çarlz Dikkens, Vladimir Mayakovski, Velimir Xlebnikov, Harold Pinter, Rolan Bart, Olqa Tokarçuk, İtalo Kalvino kimi dünya ədiblərinin əsərlərinin elektron versiyası ilə tanış olurlar.

Mədəniyyət Nazirliyinin kollektivi uzun illər "Mədəniyyət" qəzetində fəaliyyət göstərmiş tanınmış jurnalist, yazıçı-publisist

**Tahir Heydər oğlu Abbaslının**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına, eləcə də "Mədəniyyət" qəzetinin kollektivinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin kollektivi mərkəzin əməkdaşı

**Yasin Seyidovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

"Mədəniyyət" qəzetinin kollektivi uzun illər birlikdə çalışdıqları ustad jurnalist, tanınmış publisist, səmimi insan

**Tahir Heydər oğlu Abbaslının**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1322
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.